www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 13-15 dekabr 2025-ci il Şənbə № 227 (8837) Qiyməti 60 qəpik

**Xəbər**

## Qonşuda xərçəng peyvəndi - Azərbaycan sifariş edə bilər

yazısı səh.10-da

**Gündəm**

## 22 il əvvəlki kimi izdiham



Prezident və Birinci vitse-prezident Anım günündə Heydər Əliyevin məzarını ziyarət etdi

yazısı səh.4-də

# BAKI HƏRƏKƏTƏ KEÇDİ - GÜNEY QAFQAZ ÜÇÜN SENSASİON LAYİHƏ

Azərbaycanın neft məhsullarının Ermənistana daşınması üçün Gürcüstanın yüksək rüsum tələbi alternativ logistika axtarışını zəruri edir; Qazax-İcevan dəmir yolu işə düşür?



yazısı səh.8-də

## Qərbin Zəngəzur planı: Tramp layihəsinə təhlükə?

yazısı səh.9-da

## “Azərbaycan müharibəyə hazırlaşır” isterikası - Reaksiya

yazısı səh.4-də

## Konqres üzünü Azərbaycana çevirir? - Mühüm gözlənti

yazısı səh.7-də

## Ermənistanla sərhəddə delimitasiya başladı - Yeni gəlişmə

yazısı səh.8-də

## Paşinyan “artsax”ın qapısına “sonuncu qıfılı” vurdu

yazısı səh.5-də

## Bakıda Düşənbə söhbəti - Kreml üçün niyə indi?

yazısı səh.6-da

## NATO dağılsa... - Türkiyə və Azərbaycana xeyri-ziyanı

yazısı səh.13-də

## Pambıq yığımında rekord - bu necə alındı

yazısı səh.14-də

## YUNESCO “daşı ətəyindən” tökür? - Qarabağa missiya

yazısı səh.11-də

## Şirniyyatsız arıqlama - Diyetoloq isə deyir ki...

yazısı səh.15-də

## Sertifikasiya növbəsi diplomatlara çatdı - Kimlər imtahandan kəsiləcək...

Hökumət xidmət əməkdaşlarının hansı halda attestasiyadan keçməyəcəyini açıqladı; Xarici İşlər Nazirliyində keyfiyyət dəyişikliyi gözləntisi

yazısı səh.3-də



## Ramiz Mehdiyev AMEA-dan çıxarılır - dəqiqləşdi

yazısı səh.3-də



## Sülhdən sonra Araik azadlığa buraxılır? - İrəvanda eyforiya

yazısı səh.7-də



## Tənzilə Rüstəmxanlıdan həmkarına reaksiya: “Ölkədə olsaydım...”

yazısı səh.3-də

YENİ MÜSAVAT
N 227 (8837) 13 dekabr 2025



## Azərbaycan və Türkiyə hərbi təhlükəsizliyi möhkəmləndirəcək

**Azərbaycan Müdafiə Nazirliyi ilə Türkiyə Milli Müdafiə Nazirliyi arasında qarşılıqlı hərbi təhlükəsizlik möhkəmləndiriləcək.**

APA xəbər verir ki, bu, Milli Məclisin 16 dekabrda keçiriləcək iclasının gündəliyinə daxil edilən "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Türkiyə Respublikasının Milli Müdafiə Nazirliyi arasında qarşılıqlı hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında" qanun layihəsində əksini tapıb.

## Məzahir Pənahov: "Diqqətli olmalı, arxayınlaşmamalıyıq"



**"Heydər Əliyev həmin qüvvələrin planlarını pozdu".**

Teleqraf xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov deyib.

Onun sözlərinə görə, bir xalqın tarixində müstəqil olmaq zəruridirsə, Heydər Əliyev bu istiqamətdə mühüm addımlar ataraq, dünyanı idarə edən qüvvələrin planlarını pozmağı bacardı:

"Heydər Əliyev qeyri-adi yaşamı və siyasi uzaqgörənliyi ilə düşmənləri neytrallaşdıra bildi. Anım günündə iştirak edən insanların sayının ildən-ilə artması da bunun təsdiqidir. Zaman keçdikcə onun gördüyü işlərin əhəmiyyəti daha aydın görünür."

Məzahir Pənahov qeyd edib ki, Azərbaycan dövləti beynəlxalq güclərin təzyiqlərinə baxmayaraq, öz yolunu müəyyənləşdirib və dünyada sözü eşidilən ölkəyə çevrilib:

"Biz daim ayıq və diqqətli olmalı, arxayınlaşmadan çalışmalı və fəaliyyətimizi bu istiqamətdə qurmalıyıq."

Məzahir Pənahov açıqlamasında vurğulayıb ki, Mərkəzi Seçki Komissiyasının bu il tərkibinin yenidən formalaşdırılması planlaşdırılmır.

## Qarabağa qayıdanların ən yeni statistikası



**"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən 1 dekabr 2025-ci il tarixədək işğaldan azad edilmiş ərazilərə 23394 nəfər keçmiş məcburi köçkün geri qayıdıb.**

Bu barədə Modern.az-ın Dövlət Statistika Komitəsindən əldə etdiyi məlumatda bildirilib.

Bununla da işğaldan azad edilmiş ərazilərdə yaşayan, fəaliyyət göstərən və təhsil alan şəxslərin ümumi sayı 64512 nəfərə çatıb.

## 16 ailə Ağdərəyə yola salındı



**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış davam edir. Dekabrın 12-də respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Ağdamdan Ağdərənin Vəngli kəndinə yola salınıb.**

Vəngli kəndinə bu mərhələdə 16 ailə - 76 nəfər köçürülür. Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

# Ölkədə problemli kreditlərin həcmi artıb



**Azərbaycanda problemli kreditlərin həcmi açıqlanıb.**

Modern.az xəbər verir ki, Dövlət Statistika Komitəsindən Mərkəzi Bankın məlumatlarına əsasən bildirilib ki, 2025-ci il noyabr ayının 1-nə ölkənin bank və digər kredit təşkilatlarının kredit portfeli milli valyuta ekvivalentində 31169,4 milyon manat təşkil edib.

Onun 25701,7 milyon manatı uzunmüddətli kreditlər olub. Ödəmə vaxtı keçmiş kreditlərin məbləği ümumi kredit portfelinin 1,7 faizini təşkil edib. Bu isə 544,8 milyon manat deməkdir. Ödəmə vaxtı keçmiş kreditlərin məbləği 2024-cü illə müqayisədə 113,5 faiz təşkil edib.

Əhalinin banklardakı əmanətlərinin milli valyuta ekvivalentində məbləği 2025-ci il noyabr ayının 1-nə 15907,1 milyon manat olub.

2025-ci ilin yanvar-noyabr aylarında milli valyutanın 1 ABŞ dollarına nisbətdə orta məzənnəsi 1,70 manata, 1 Avroya - 1,91 manata, 100 Türk lirəsinə - 4,35 manata, 100 Rusiya rubluna - 2,03 manata bərabər olub.

## Evə sərxoş gəldi, arvadını bıçaqladı

**Suraxanı Rayon Məhkəməsində qəsdən sağlamlığa yüngül zərər vurmada təqsirləndirilən Cabir Hacılının (adı, soyadı şərtidir) cinayət işi üzrə məhkəmə istintaqı yekunlaşıb.**

Pravda.az-ın əldə etdiyi məlumata görə, hakim Ünsüyyət Mirzəyevanı sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

Məhkəmənin hökmü ilə o, zərərçəkmiş şəxslə barışdığı və dəymiş ziyanı tamamilə ödədiyi üçün cinayət məsuliyyətindən azad edilib, barəsində olan cinayət təqibinə xitam verilib.

İttihama görə, hadisə 5 noyabr 2025-ci il tarixdə, saat 20:30 radələrində paytaxtın Suraxanı rayonunda qeydə alınıb.

Belə ki, Cabir Hacılı sərxoş vəziyyətdə yaşadığı mənzilə qayıtdıqda birlikdə qeyri-rəsmi ər-arvad münasibətində yaşadığı, zərərçəkmiş Vəsilə Babayeva (adı, soyadı şərtidir) ilə mübahisə edib. Buna səbəb qadının Cabirin sərxoş vəziyyətdə evə gəlməsinə etiraz etməsi olub. Qadın təkidlə ərinə evi tərk etməsini tələb edib. Mübahisə zamanı təqsirləndirilən şəxs əvvəlcə əli ilə zərərçəkmişin bədəninin müxtəlif nahiyələrinə vurub, daha sonra isə mətbəxdən götürdüyü bıçaqla Vəsilənin sol qol nahiyəsinə bir dəfə zərbə endirib. Nəticədə qadın sol said nahiyəsinin kəsilmiş yarası, başın sol gicgah nahiyəsində sıyrıq və sol bazu nahiyəsində qançır xəsarətləri alıb.

Hadisədən sonra Cabir Hacılı saxlanılaraq cinayət məsuliyyətinə cəlb edilib. Məhkəmə iclasında zərərçəkmiş şəxs təqsirləndirilənlə barışdığını, dəymiş ziyanın tam ödənildiyini, ona qarşı şikayət və tələbinin olmadığını bildirib. Bu səbəbdən, məhkəmədən iş üzrə icraata xitam verilməsi xahiş olunub.

## Rəssam Şahbaz Xuduoğlunu məhkəməyə verib



**"Əl işlərimin xəbərsiz istifadə edildiyinə görə başlatdığımız məhkəmədə "Qanun" nəşriyyatı heç iştirak etmədi, "Xan" nəşriyyatının vəkili isə sonuncu dəfə gəlmədi. Və beləcə məhkəmə işi baxışa yollandı".**

Modern.az xəbər verir ki, bunu tanınmış rəssam Pəri Miniatür sosial şəbəkədə yazıb.

"Mənə Azərbaycanda ədalət yoxdur, onsuz da məhkəmə işə baxmayacaq - deyənlər, yanımda olmayan rəssamlar və öz hüquqlarına laqeyd yanaşıb, ölkədə turist effekti ilə yaşayanların diqqətinə çatdırıram ki, nəticənin fərqindən asılı olmayaraq mən bu işi də, prosesi də başlatdım və nəticə açıqalanmadan da özümü qalib hesab edirəm.

Siz isə qorxaq və laqeyd mühitinizdə bitlənin!", - rəssam qeyd edib.

## Meydan TV işi üzrə məhkəmə başladı



**Bakı Jurnalistika Məktəbinin (BJM) direktor müavini Ülvi Tahirov, Meydan TV-nin baş redaktoru Aynur Qəmbərova, jurnalistləri Natiq Cavadlı, Aytac Tapdıq, Aysel Umudova, Ülviyyə Quliyeva, Xəyalə Ağayeva, Ramin Cəbrayılzadə, həmçinin müstəqil jurnalist Nurlan Qəhrəman, "Arqument.az" saytının rəhbəri Şəmşad Ağayev, foto-müxbir Əhməd Muxtarın cinayət işi üzrə məhkəmə prosesi başlayıb.**

Axar.az xəbər verir ki, dekabrın 12-də Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Aytən Əliyevanın sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxslərin anket məlumatları dəqiqləşdirilir. Dövlət ittihamını Baş Prokurorluğun dövlət ittihamı idarəsinin Ağır Cinayətlər üzrə prokuroru Elgin Qafarov təmsil edir. Hazırda proses davam edir.

Qeyd edək ki, 2024-cü ilin dekabrında Meydan TV əməkdaşları - Ramin Cəbrayılzadə (Ramin Deko), Aynur Qəmbərova (Elgünəş), Aytac Əhmədova (Tapdıq), Aysel Umudova, Xəyalə Ağayeva, Natiq Cavadlı və Ülvi Tahirov saxlanılıblar.

Daha sonra isə 2025-ci ilin fevralın fevralın 5-də "Arqument.az" saytının rəhbəri Şəmşad Ağayev (Şəmşad Ağa) "Meydan TV işi" üzrə şübhəli şəxs qismində saxlanılıb.

Fevralın 20-də Nurlan Qəhrəmanlı (Libre), fevralın 28-də Fatimə Mövlamlı, mayın 7-də isə Ülviyyə Əli saxlanılıblar.

Daxili İşlər Nazirliyinin yaydığı məlumatda adıçəkilən şəxslərin ölkəyə qanunsuz xarici valyuta gətirməklə bağlı daxil olan məlumat əsasında saxlanıldıqları bildirilib. Onlara Cinayət Məcəlləsinin 206.3.2-ci (qaçaqmalçılıq, əvvəlcədən əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) maddəsi ilə ittiham verilib. Mühakimə olunan şəxslərin hər biri ittihamları qəbul etmir, onlar özlərini təqsirli bilməyiblər.



## Şamaxıda dəm qazından zəhərlənmə

**Şamaxı rayonunda dəm qazından zəhərlənmə hadisəsi baş verib.**

"Unikal" xəbər verir ki, Şamaxının Göylər kənd sakini, 35 yaşlı Ləman Alıyeva və 15 yaşlı Ayxan Alıyev dəm qazından zəhərlənmə diaqnozu ilə Rayon Mərkəzi Xəstəxanasına çatdırılıblar. Xəstəxanada hər iki şəxsə ilkin tibbi yardım göstərilib, onların müalicəsi davam etdirilir.




## UEFA reytinqi: Azərbaycanın yeri açıqlandı

**Avrokuboklarda qeydə alınan nəticələrə əsasən ölkələrin reytinqi yenilənib. Azərbaycanın reytinq sıralamasındakı mövqeyi dəyişməyib. Ölkəmiz əvvəlki kimi, 26-cı yerdə qərarlaşıb. Azərbaycanın cari mövsümkü reytinqi 5,125-ə, son 5 ildəki göstəricisi isə 22.250-yə bərabərdir.**

Bununla belə, Ukrayna növbəti qələbəsini, belədə reytinq xalları qazanıb. Sözügedən ölkə Arda Turanlı "Şaxtyor Donetsk"in qələbəsi sayəsində reytinq xalı 22.850-yə çatıb.

Təqibçimiz Sloveniyanın isə 22.218 əmsalı var. Qeyd edək ki, UEFA reytinqinə İngiltərə (103.339) başçılıq edir.

## Mərkəzi Bank üç şirkəti cərimələdi

**Azərbaycan Mərkəzi Bankı (AMB) "Legion Financial" ASC, "Level Leasing" MMC və "Ekolizinq" MMC barəsində inzibati xəta haqqında qərar qəbul edib.**

Cari nəzarət tədbirləri çərçivəsində adıçəkilən təşkilatların qanunvericiliklə müəyyən olunmuş müddətlərdə hesabatları təqdim etmədiyi və Məlumatların Elektron Açıqlanması Sistemi vasitəsilə ictimaiyyətə açıqlama öhdəliklərini yerinə yetirmədiyi müəyyən olunub.

Bu səbəbdən hər üç qurum İnzibati Xətalar Məcəlləsinin 422-ci maddəsinə uyğun olaraq 2 min manat məbləğində cərimələnib.

# Sertifikasiya növbəsi diplomatlara çatdı - Kimlər imtahandan kəsiləcək...

## Hökumət xidmət əməkdaşlarının hansı halda attestasiyadan keçməyəcəyini açıqladı; Xarici İşlər Nazirliyində keyfiyyət dəyişikliyi gözləntisi

**"Diplomatik xidmət əməkdaşlarının attestasiyasının keçirilməsi Qaydası" təsdiqlənib. Nazirlər Kabineti bu barədə qərar verib.**

Attestasiya diplomatik xidmət əməkdaşlarının peşəkarlıq, işgüzarlıq və mənəvi keyfiyyətlərinin qiymətləndirilməsi, habelə tutduğu vəzifəyə uyğun olduğunu müəyyən etmək məqsədilə keçirilir. Əməkdaş müvafiq diplomatik vəzifədə ən azı 1 (bir) il daimi xidmət keçəndən sonra attestasiyadan keçirilə bilər. Əməkdaşlar attestasiyadan beş ildə bir dəfədən çox olmayaraq keçirilir və bu zaman onların xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticələri nəzərə alınır. Qeyd edilənlər nəzərə alınmaqla, diplomatik nümayəndəlikdə və ya konsulluqda xidmət keçən əməkdaş rotasiya əsasında geri çağırıldıqdan sonra attestasiyadan keçirilir.

Qərarda deyilir ki, hansı əməkdaşlar attestasiyadan keçirilmirlər:

Prezident tərəfindən diplomatik rütbə verilənlər; xüsusi tapşırıqlar üzrə səfirlər və idarə rəisləri; staj və sınaq dövründən sonra daimi diplomatik xidmətdə bir ildən az müddətdə xidmət keçənlər; Vətənin müdafiəsi, azadlığı və ərazi bütövlüyü uğrunda hərbi əməliyyatlarda xəsarət (yaralanma, travma, kontuziya) alanlar və əlilliyi müəyyən edilənlər;

Azərbaycanın müstəqilliyinin və ərazi bütövlüyünün müdafiəsi zamanı göstərdiyi şücaətlərə görə dövlət təltiflərinə və fəxri adlara layiq görülənlər; bir vəzifədə beş ildən az müddətdə çalışan məcburi köçkün statusu olanlar; hamilə qadınlar;

uşağının üç yaşınadək sosial məzuniyyətdə olan və həmin məzuniyyət bitdikdən sonra bir ildən az müddətdə müvafiq vəzifəni tutan qadınlar (uşağını təkbaşına böyüdən kişilər);



eyni vəzifədə ən azı üç dəfə attestasiya olunaraq tutduğu vəzifəyə uyğun olduğu müəyyən edilənlər. Attestasiyanın keçirilməsinin müddətləri, cədvəli və sualların hazırlanmasında istifadə olunan hüquqi aktların və digər məlumat mənbələrinin siyahısı Azərbaycan Respublikasının xarici işlər naziri tərəfindən təsdiq edilir və attestasiyanın başlanılmasına ən geci 1 (bir) ay qalmış attestasiyadan keçirilməli olan əməkdaşın nəzərinə çatdırılır.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Elman Nəsirov "Yeni Müsavat"a bildirdi ki, məqsəd diplomatların peşəkarlığı, işgüzarlığı, mənəvi keyfiyyətləri, eyni zamanda tutduğu vəzifəyə uyğunluğu barədə araşdırma aparmaq, müvafiq qiymətləndirmə həyata keçirməkdir. Deputatın sözlərinə görə, diplomatların bilik və bacarıqlarının, səriştəsinin hansı səviyyədə olduğunun müəyyən edilməsi nəticə etibarilə Azərbaycan diplomatiyasının gücləndirilməsinə xidmət edir: "Belə qərarların qəbul edilməsi diplomatik fəaliyyət sistemində keyfiyyətin yüksəldilməsi mənafeyinə xidmət edir. Azərbaycanın beynəlxalq aləmdə çox ciddi diplomatik uğurları var. Tarixi zəfərimizi və onun nəticələrini həm də diplomatik fəaliyyətimizlə möhkəmləndiririk. Bu baxımdan yüksək keyfiyyətlərə malik diplomatik kadrların yetişdirilməsi zəruri məsələlərdən biridir. Bu sahədə hər hansı boşluq varsa, uyğun gəlmədiyi halda diplomatik xidmət sistemində mövqeyə sahiblənənlər varsa, attestasiya bu kimi halları üzə çıxaracaq".

Qeyd edək ki, Attestasiya Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin yüksək vəzifəli məsul əməkdaşlarından ibarət tərkibdə yaradılmış, üzvlərinin sayı beş nəfərdən az olmayan attestasiya komissiyası tərəfindən kollegial və obyektiv surətdə keçirilir. Komissiyanın tərkibi (sədr, katib və ən azı üç üzv) və səlahiyyət müddəti Azərbaycan Respublikasının xarici işlər naziri tərəfindən təsdiq olunur. Komissiyanın üzvləri tərəfindən əməkdaşa yalnız tutduğu vəzifənin funksiyaları, ixtisası, icra etdiyi işlər və onların nəticələri, xidmət funksiyalarına aid məsələlər, habelə diplomatik xidmət orqanı əməkdaşlarının əsas vəzifələri, hüquqları və onlara şamil olunan məhdudiyyətləri barədə suallar verilir. Attestasiyadan keçirilən əməkdaşın xidməti fəaliyyətinə bilavasitə aid olmayan sualların verilməsi və şəxsi dəyərlərinə görə peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi yolverilməzdir.

Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat vermiş əməkdaş attestasiyadan keçirildikdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatların verilməsi üçün müəyyən edilən müvafiq vəzifəli şəxsi və ya struktur bölməsinin nümayəndəsi attestasiya komissiyasının iclasında birbaşa və ya dolayı yolla iştirak etməməlidir.

Attestasiyadan keçirilməli olan əməkdaşa attestasiyanın başlanmasına ən azı iki həftə qalmış onun bilavasitə rəhbəri tərəfindən hazırlanmış xidməti xasiyyətnamə verilir və həmin əməkdaş ona verilən xasiyyətnamə ilə tanış olur.

Əməkdaşın fəaliyyətinə verilən qiymət və komissiyanın tövsiyələri attestasiyadan keçirilən əməkdaşın iştirakı olmadan açıq səsvermə yolu ilə qəbul edilir. Attestasiya və səsvermə komissiyanın üzvlərinin ən azı üçdə iki hissəsinin iştirakı ilə keçirilir. Səsvermənin nəticələri səs çoxluğu ilə müəyyən edilir. Səslər bərabər olduqda, attestasiyadan keçirilən əməkdaş tutduğu vəzifəyə uyğun hesab edilir. Attestasiyanın nəticələri səsvermədən dərhal sonra əməkdaşa bildirilir.

❑ Nİgar HƏSƏNLİ,
"Yenİ Müsavat"

## Ramiz Mehdiyev AMEA-dan çıxarılır - dəqiqləşdi



**"Ramiz Mehdiyevin etdiyi hərəkətlər onun Akademiyanın həqiqi üzvü olaraq qalmasına imkan vermir".**

Musavat.com xəbər verir ki, bunu AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, AMEA-da Ramiz Mehdiyevin üzvlük məsələsinə baxılacaq və lazımi qiymət veriləcək: "Bu məsələdə akademiyanın konkret mövqeyi var. Ramiz Mehdiyevin Azərbaycan müstəqil dövlətçiliyinə qarşı etdiyi hərəkətlər, barəsindəki ittihamlar onun akademiyanın üzvü olaraq qalmasına qətiyyən imkan vermir. Məsələyə Akademiyada baxılacaq və lazımi qərar qəbul ediləcək".

Qeyd edək ki, hazırda Ramiz Mehdiyev Cinayət Məcəlləsinin 278.1 (dövlət hakimiyyətini ələ keçirməyə yönələn əməllər), 274 (dövlətə xəyanət) və 193-1.3.2-ci (cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırma) maddələri ilə ittiham olunur.

Bakı şəhəri Səbail rayon məhkəməsi Mehdiyev Ramiz Ənvər oğlu barədə cinayət işi üzrə bu il oktyabrın 14-də qərar qəbul edib. Qərara əsasən, məhkəmə xüsusilə ağır cinayət əməllərinə görə cinayət məsuliyyətinə cəlb edilmiş Ramiz Mehdiyev barədə verilmiş vəsatəti təmin edərək, 4 ay müddətinə ev dustaqlığı qətimkan tədbiri seçib.

## Fəzail Ağamalı: "Gedin onu oğlumdan soruşun"



**Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı oğlu Elçin Ağamalının Ədliyyə Nazirliyinə müraciəti ilə bağlı fikirlərini bölüşüb.**

Musavat.com xəbər verir ki, o, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdikdən sonra jurnalistlərə açıqlamasında partiyanın fəaliyyətini davam etdirdiyini bildirib.

F.Ağamalı oğlunun Ədliyyə Nazirliyinə müraciəti ilə bağlı suala isə "gedin onu oğlumdan soruşun" deyə reaksiya verib.

Qeyd edək ki, bir müddət əvvəl AVP-nin qurultayı keçirilib. Elçin Ağamalı qurultayda qalib gəldiyini iddia etsə də, Fəzail Ağamalı bunu qəbul etməyib.








# Tənzilə Rüstəmxanlıdan həmkarına reaksiya: "Ölkədə olsaydım..."

**Milli Məclisin vitse-spikeri Rafael Hüseynovla onun üzvü olduğu Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı arasında yaşanmış mübahisə ictimai müzakirələrə səbəb olub.**

Bir neçə gün öncə Milli Məclisdə keçirilən "Azərbaycan dilinin dövlət dili kimi inkişaf strategiyası: Mövcud vəziyyət və perspektivlər" adlı konfransın moderatoru, vitse-spiker Rafael Hüseynov Azərbaycan dilinin normaları ilə bağlı müzakirələrdə çıxış üçün tədbirə dəvət olunan sabiq deputat, Xalq şairi Sabir Rüstəmxanlının sözünü kəsərək deyib ki, ona ayrılan vaxtı başa çatıb.

Sabir Rüstəmxanlı son bir cümlə demək istəsə də, vitse-spiker buna imkan yaratmayıb.

"Bizi buraya dəvət etmisinizsə, fikir bildirməyə imkan verməlisiniz. Mənə 3 dəqiqə vaxt verirsiniz, lakin siz (Rafel Hüseynov - müəl.) hər çıxışdan sonra 5 dəqiqə izahat verirsiniz. Bu cür hörmətsizlik olmaz", - deyə Xalq şairi irad bildirb.

Rafael Hüseynov isə Sabir Rüstəmxanlıya fikirlərini söyləmək üçün "başqa gün" müraciət edə biləcəyini bildirib. Bundan sonra Sabir Rüstəmxanlı vitse-spikerə etiraz əlaməti olaraq konfransı tərk edib.

Hadisədən sonra Vətəndaş Həmrəyliyi Partiyası iclas keçirərək təşkilatın üzvü Rafael Hüseynova sədrə qarşı etdiyi hərəkətə görə töhmət elan edib.

Sabir Rüstəmxanlının həyat yoldaşı, Vətəndaş Həmrəyliyi Partiyasının Milli Məclisdəki digər deputatı Tənzilə Rüstəmxanlı məsələ ilə bağlı Modern.az-a danışıb:

"Rafael müəllimlə Sabir bəy iki dost, iki ziyalıdırlar. Uzun illərdir bir yerdə olublar, hər zaman bir-birlərinə sayğılı davranıblar. Kaş ki belə hadisə olmayaydı. Rafael müəllim orada "kuralçı" davranıb. Amma Sabir Rüstəmxanlı Azərbaycan dilinin qorunması üçün bir ömür xərcləyən adamdır. Bunu Rafael müəllim hər kəsdən yaxşı bilir. O, Sabir bəyin ədəbi yaradıcılığını, ədəbi fəaliyyətini, əsərlərini ən yaxşı oxuyub təhlil edənlərdən biridir".

T. Rüstəmxanlı VHP-ni Milli Məclisdə təmsil edən deputatlardan birinin də Rafael Hüseynovun olduğuna diqqət çəkərək baş verən hadisənin partiya daxilində narazılıq yaratdığını deyib:

"Partiyamızda narazılıq olub ki, niyə Rafael müəllim sədri Sabir bəyə qarşı belə sayğısızlıq edib? Mən bu hadisənin ikisinin arasında həll olunmasını düşünür, arzu edirəm. Fikrimcə, Rafael müəllim bu məsələdə Sabir bəyə bilərək sayğısızlıq edəcək mədəniyyətə sahib deyil".

Müsahibimiz bildirib ki, hadisə partiya daxilində müzakirə olunarkən ölkədə olmayıb. Ölkədə olduğu təqdirdə məsələnin bu qədər böyüyəcəyinə imkan verməzdi:

"Mən olsaydım məsələni bu qədər böyütməzdim. Hazırda da ölkədən kənarda olduğum üçün nəsə edə bilmədim. Sabir bəy demokratik insandır, hər kəsin fikrinə hörmətlə yanaşır".

Tənzilə Rüstəmxanlı konflikti partiyadaxili intizam məsələsi hesab edir və digər yerlərdə müzakirə olunmasını istəmir:

"Məsələ çox da gündəmə gəlməməlidir. Amma mən bu hadisədə insanların Sabir bəyə qarşı sevgisini gördüm. Bunlar normal proseslərdir. Hesab edirəm ki, hər kəs bu hadisədən nəticə çıxardı - bəzi yerlər, bəzi işlər var ki, ona bu qədər müdaxilə olmaz, daha ehtiyatlı və sayğılı yanaşmaq lazımdır. Hər ikisi ağıllı insandır, belə xırda şeylər onları üz-üzə gətirməməlidir", - deyə Tənzilə Rüstəmxanlı bildirib.

YENİ MÜSAVAT
N 227 (8837) 13 dekabr 2025






# 22 il əvvəlki kimi izdiham

## Dövlət başçısı və Birinci vitse-prezident Anım günündə Heydər Əliyevin məzarını ziyarət etdi; xalq dahi rəhbərini böyük ehtiramla andı

**Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatından 22 il ötdü. Musavat.com xəbər verir ki, dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.**

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoyub. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Dövlətimizin başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini ehtiramla andılar, məzarı üzərinə gül dəstələri qoyublar. Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üstünə gül dəstələri düzülüb.

Ümummilli Liderin Anım günü dövlət və hökumət nümayəndələri, ictimaiyyət, sadə vətəndaşlar tərəfindən dahi liderin məzarını ziyarət etməklə və digər tədbirlərlə keçib.

Milli Məclisin sədri Sahibə Qafarova, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev, digər dövlət və hökumət rəsmiləri, hərbi qulluqçular, hüquq-mühafizə orqanlarının əməkdaşları, diplomatik korpusun nümayəndələri Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edərək abidəsi önünə gül dəstələri qoyub, müasir müstəqil Azərbaycanın banisi və qurucusu Ulu Öndərin xatirəsinə dərin ehtiramlarını bildiriblər. Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri qoyulub.

Ziyarətdə iştirak edən Türkiyənin Azərbaycandakı səfiri Birol Akgün mediaya açıqlamasında deyib ki, Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycanın formalaşmasında mühüm rol oynayıb. O bildirib ki, Azərbaycanın müstəqilliyi dövründə qarşılaşdığı çoxsaylı çətinlikləri böyük bir dövlət xadimi olaraq aradan qaldırıb, ölkənin müstəqilliyini, iqtisadiyyatını və siyasi sabitliyini gücləndirib: “Bu günkü Azərbaycan onun uzaqgörən siyasəti və əvəzsiz rəhbərliyi sayəsində inkişaf edib və möhkəmlənib”.

Azərbaycanın dövlətçilik tarixində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xidmətləri bütöv bir epoxanı özündə ehtiva edir. Onun dahiyanə siyasi uzaqgörənliyi, dövlət quruculuğu sahəsində atdığı addımlar, müstəqil Azərbaycanın inkişaf strategiyasının əsasını təşkil edən qərarları xalqımızın yaddaşında silinməz iz buraxıb. Ulu Öndərin hakimiyyəti illərində ölkəmizin sabitliyə qovuşması, iqtisadiyyatın dirçəldilməsi, ordu quruculuğunun möhkəmləndirilməsi Azərbaycanın gələcək yüksəlişini təmin edən əsas dayaqlara çevrilib. Xalqımız ağır və taleyüklü dönəmlərdə Ümummilli Lider Heydər Əliyevin xilaskarlıq missiyasını dərin minnətdarlıqla xatırlayır. Məhz onun rəhbərliyi illərində Azərbaycan qarşılaşdığı təhlükələrdən xilas oldu, milli özünüdərk gücləndi, müstəqilliyimizin əbədiliyi üçün möhkəm təməllər qoyuldu. Hər il dekabrın 12-də və mayın 10-da minlərlə insanın Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət etməsi xalqın dahi övladının xatirəsinə əbədi ehtiramının və sədaqətinin bariz ifadəsidir.

Ulu Öndər Heydər Əliyevin ən böyük arzularından biri Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, Qarabağın azad edilməsi idi. Onun bu arzusu illər sonra öz layiqli davamçısı tərəfindən həyata keçirildi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli mövqeyi və əzmkarlığı nəticəsində Ordumuz tarixi Zəfər qazandı, ölkəmizin ərazi bütövlüyü, suverenliyi bərpa olundu, üçrəngli Bayrağımız işğaldan azad edilmiş şəhər və kəndlərimizdə ucaldıldı.

Bu gün Qarabağda və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa və quruculuq işləri Azərbaycanın gücünü, həmçinin gələcəyə olan inamını əks etdirir. Azad olunan torpaqlarda yeni həyatın başlanması Ümummilli Lider Heydər Əliyevin dövlətçilik ideyalarının davamlılığının və uğurla həyata keçirilməsinin göstəricisidir.

Ulu Öndərin müəyyənləşdirdiyi inkişaf yolu bu gün də ölkəmizin siyasi və iqtisadi tərəqqisinin əsasını təşkil edir.

Prezident İlham Əliyevin apardığı siyasət Azərbaycanın beynəlxalq arenada nüfuzunu artırıb, ölkəmizi bölgədə mühüm tərəfdaş və güclü dövlətə çevirib. Dövlətimizin milli maraqlarının qətiyyətlə müdafiə olunması, təhlükəsizlik və inkişaf strategiyasının ardıcıl şəkildə davam etdirilməsi dahi Heydər Əliyev ideyalarının yaşayaraq inkişaf etdiyini göstərir.

Qəti şəkildə demək olar ki, Azərbaycan xalqı Ümummilli Lider Heydər Əliyevin ideyalarına daim sadiq olacaq, onun müəyyənləşdirdiyi inkişaf yolu ölkəmizi daha böyük uğurlara doğru aparmaqda davam edəcək.

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

# “Azərbaycan müharibəyə hazırlaşır” isterikası

## Ermənistan niyə xoflanıb?

**Azərbaycanla Avropanın müxtəlif ölkələri arasında inkişaf edən münasibətlər Ermənistanda getdikcə daha çox narahatlıq predmetinə çevrilir. Bunu Prezident İlham Əliyevin Slovakiyaya rəsmi səfəri fonunda bir daha görmək mümkündür.**

Baş verənləri böyük həyəcanla izləyən armenianreport portalı prosesin İrəvan üçün müsbət heç nə vəd etmədiyini yazır.

Portal etiraf edir ki, Azərbaycan Prezidenti İlham Əliyevin Slovakiyaya rəsmi səfəri geniş əks-səda doğurub: “Bu hadisəyə səbəb həm də Slovakiya prezidenti Peter Pelleqrininin səs-küylü, hətta qalmaqallı bəyanatı oldu. O, Azərbaycanla müdafiə sənayesi sahəsində əməkdaşlığı inkişaf etdirmək niyyətində olduğunu açıq şəkildə bildirib. Üstəlik, bura təkcə silah satışı deyil, həm də texnologiya transferi, birgə müəssisələr və üçüncü ölkələrə birgə hərbi təchizat daxildir. Pelleqrini həvəsini gizlətməyib. O, Slovakiyanın qabaqcıl müdafiə sənayesi - özüyeriyən artilleriya, döyüş sursatları və yüksək texnologiyalı sistemlərdən qürurla danışıb. O xatırladıb ki, Slovakiya baş nazirinin müavininin əvvəlki səfəri zamanı Azərbaycan tərəfi avtomatik artilleriya qurğularına maraq göstərib. İndi də prezident əminliklə bəyan etdi ki, bu silahlar Azərbaycan Silahlı Qüvvələrini gücləndirəcək. Amma bu, əsas sualı ortaya qoyur: əgər müharibə erası bitibsə, Azərbaycan öz silahlı qüvvələrini nəyə görə gücləndirməlidir? Əgər müharibə həqiqətən də ”keçmişdə qaldı"sa, o zaman Azərbaycana nə üçün çoxsaylı raket sistemləri lazımdır?", - deyə erməni mediası isterika ilə yazır.

Azərbaycanın müasir silahlar alması Ermənistanı niyə narahat edir? Ermənistan da Fransa, Yunanıstan, Hindistan kimi ölkələr hesabına silahlanır, bəs buna nə ad verək?

AMİP Ali Məclisinin sədri, politoloq Rəşad Bayramov “Yeni Müsavat”a açıqlamasında burada yeganə bir səbəb gördüyünü vurğuladı: “Azərbaycanın son illərdə hərbi qüdrətini artırmağa davam etməsi, yüksək texnologiyalı si-



lahlar, artilleriya qurğuları, təyyarələr və s. silah növləri ilə öz müdafiə potensialını gücləndirməsi həqiqətdir. Bunun Ermənistan tərəfindən isterika ilə qarşılanması da başa düşüləndir. ”Xain xoflu olar" deyiblər. Hələ də revanşist hisslərlə yaşayan və hələ də nə vaxtsa ərazilərimizi yenidən işğal edə biləcəklərini düşünən bir toplum olaraq ermənilər Azərbaycanın hərbi qüdrətini artırmasını həzm edə bilmirlər.

Əslində isə onlar da başa düşürlər ki, silahlanma yalnız müharibəyə hazırlıq deyil, eyni zamanda, bir ölkənin suverenliyini və təhlükəsizliyini təmin etmək məqsədi daşıyır. Azərbaycanın da son dövrlərdə həm hərbi texnologiyaların, həm də strateji silahların alınmasına diqqət yetirməsi yalnız Azərbaycan Silahlı Qüvvələrinin güclənməsini deyil, həm də ölkənin regional müstəqilliyini və mövqeyini möhkəmləndirən bir vasitədir.

Digər bir tərəfdən Azərbaycan işğalçı və Ermənistan kimi başqalarına qarşı ərazi iddiaları ilə çıxış edən ölkə deyil və bu baxımdan bizim öz hərbi potensialımızı artırmağımız kiməsə qarşı yönəlməyib. Azərbaycan regionda sülh və sabitlik istəyən və sülh quruculuğu üçün gündəliyi formalaşdıran və həyata keçirən bir dövlətdir. Odur ki, Ermənistanda ayrı-ayrı media qurumları, siyasilər və ekspertlər Azərbaycanın silahlanması ilə bağlı isterika yerinə özlərinin silahlanma siyasətinə açıqlama gətirsələr daha yaxşı olar. Fransadan, Yunanıstandan və Hindistandan hərbi texnologiya almaları aydınlıq gətirsinlər.

Bəli, biz silahlanırıq və Slovakiya ilə müdafiə sahəsində əməkdaşlıq etməyimizin də Silahlı Qüvvələrimizə ciddi müasir güc qatacağına şübhə yoxdur. Amma bu hərbi əməkdaşlıq kiməsə qarşı yönəlməyib. Bu, Azərbaycan üçün həm müdafiə, həm də potensial təhdidlərə qarşı bir zəmanət kimi xidmət edir. Həmçinin, Azərbaycanın müasir silahlar alması ölkəmizin təhlükəsizliyini artırmaq və regional güc mübarizəsində balansı qorumaq məqsədini daşıyır".

Hərbi ekspert Səxavət Məmməd qeyd etdi ki, Azərbaycanla Slovakiya arasında hərbi, xüsusilə müdafiə sənayesi sahəsində əməkdaşlıq mövcuddur: “ Azərbaycan Slovakiyadan daha əvvəl özüyeriyən DANA haubitsaları almışdı. 44 günlük müharibə zamanı bu haubitsalar özünü müsbət tərəfdən göstərdi. Ermənistan Fransadan "Sezar" haubitsası alandan dərhal sonra Azərbaycan Slovakiyadan müasirləşdirilmiş və NATO standartlarına cavab verən DITA haubitsası sifariş verdi. Bundan əlavə Azərbaycanın Slovakiyadan gələcəkdə DANA-ların müasirləşdirilmiş versiyası ZUZANA artileriya qurğuları alması ehtimalı da yüksək görünür. Yeri gəlmişkən Slovakiyadan həm də sursatların istehsalı sahəsində təminləşmiş şirkətlər var. Azərbaycan müdafiə sənayesi sahəsinə ciddi yatırımlar edir. Ona görə də Slovakiya ilə Azərbaycanın əməkdaşlıq etməsi, hətta Azərbaycana texnologiya ixracı və birgə müəssisələrin qurulması ehtimalı çox yüksəkdir.

Ermənistanın bu məsələdən narahat olmasına gəldikdə isə, müharibədən sonra Cənubi Qafqazda silahlanma yarışına stratı məhz rəsmi İrəvan verib. Ermənistan Fransa, Yunanıstan, xüsusilə də Hindistandan artilleriya qurğularından tutmuş, raketlərə, dronlara və antidron sistemlərinə qədər alıb və almaqda davam edir. Ona görə də, Ermənistanın bu məsələdə Azərbaycanı ittiham etməsi doğru yanaşma deyil.

❑ **Cavanşir ABBASLI ,**
**“Yeni Müsavat”**

# Paşinyan “artsax”ın qapısına “sonuncu qıfılı” vurdu

## Separatçıların yerləşdiyi binada axtarış aparılıb; hakimiyyət tör-töküntülərin əl-ayağını yığa biləcəkmi?



**Ermənistanın “Jogovurd” qəzeti yazıb ki, dekabrın 11-də “artsax nümayəndəliyi”nin binasında axtarış aparılıb. Qəzetin yazdığına görə, İrəvanda Qarabağ separatçılarının nümayəndəliyinin ilin sonuna qədər bağlanacağı və ya müsadirə ediləcəyi ehtimal olunur. Nəşrin məlumatına görə, separatçılar nümayəndəliyin bağlanması ehtimalını, eləcə də mümkün həbsləri istisna etmirlər. Onların sözlərinə görə, hüquq-mühafizə orqanlarının əsas hədəfi keçmiş Qarabağ separatçılarının lideri Samvel Şahramanyandır. Bir gün əvvəl İstintaq Komitəsi əlavə təfərrüatlar vermədən cinayət işi çərçivəsində “zəruri istintaq hərəkətləri” apardığını elan edib. Separatçı Njde İskandaryan bildirib ki, müstəntiqlər dörd saatdan çox davam edən axtarışlardan sonra kompüteri müsadirə ediblər. O əvvəllər qeyd edib ki, məhkəmə qərarı İstintaq Komitəsinə zəruri hallarda sənədləri müsadirə etməyə icazə verir.**

Digər erməni mediası ArmLur.am da xəbər yayıb ki, ilin sonuna qədər binanı bağlamaq və ya “artsax hakimiyyəti”ni sıradan çıxarmaq hədəflənib. Qeyd olunub ki, keçmiş qondarma qurumun rəhbəri Samvel Şahramanyan ilk hədəflərdən biridir. Xatırladaq ki, İstintaq Komitəsi İrəvanın Nairi Zaryan küçəsi, 17/A ünvanında yerləşən “artsax nümayəndəliyi” nin binasında axtarış aparıb. Əməliyyat-axtarış tədbirlərinin həyata keçirildiyi cinayət işi 2025-ci ilin iyun ayında başlanıb. Kilsə ilə paralel şəkildə separatçı tör-töküntülərlə də mübarizə aparan Paşinyan hakimiyyəti seçkiyə qədər bütün əngəlləri təmizləmək niyyətindədir. Azərbaycandan sonra Ermənistan özü də mifik “artsax” ideyasını İrəvanda dəfn etməyə hazırlaşır.

Xatırladaq ki, bundan əvvəl Paşinyan dəfələrlə “artsax” mövzusuna münasibət bildirib. Ermənistan rəhbərliyi Azərbaycanın təqdim etdiyi “ev tapşırıqları”nı ləng də olsa, icra etməkdədir və başqa çıxış yolunun olmadığını anlayır. Parlament sədri Alen Simonyan da Ermənistanın Azərbaycandan neft məhsulları almasını mümkün sayıb. Ancaq iqtisadi-ticari əlaqələrdən öncə atılmalı olan addımlar var, o cümlədən Ermənistan Konstitusiyasının dəyişdirilməsi, həmçinin Qarabağ erməniləri ilə bağlı absurd iddialardan imtina.

Faktiki olaraq Bakının təklif etdiyi sülh gündəliyinə uyğun proses gedir. Paşinyan sonadək “ev tapşırıqları”nı icra edəcəkmi? O cümlədən “artsax”la bağlı... Yoxsa İrəvandakı “artsax”ın qapısının qıfılı yenidən açıla bilər?

Sosial Tədqiqatlar Mərkəzinin baş mütəxəssisi, siyasi şərhçi Tural İsmayılov “Yeni Müsavat”a bildirdi ki, Paşinyanın “artsax”ın qapısına sonuncu qıfılı vurması təsadüfi addım deyil: “Bu, Ermənistan daxilində dəyişən siyasi nizamın açıq etirafıdır. İrəvanda ”artsax nümayəndəliyi"nin bağlanması artıq mifik ideyanın həyat dövrünün bitdiyini göstərir. Bu addım həm də Ermənistanın illərlə üzərində qurduğu separatçı narrativin öz paytaxtında çökdüyünün rəsmi təsdiqidir. Axtarışların aparılması, binanın bağlanması planı və separatçı rəhbərlərin hədəfə alınması Paşinyanın seçkiyə gedərkən “köhnə yük”dən xilas olma planıdır. Şahramanyanın növbəti hədəf kimi qeyd edilməsi Ermənistanın öz yaratdığı separatçı problemi daşıya bilmədiyini göstərir. İrəvan bu dəfə öz separatçılarını özü neytrallaşdırır və bunu açıq şəkildə edir. Paşinyanın bu davranışı həm də daxili siyasi rəqiblərinə mesajdır: “Kim köhnə xəttə qayıtmaq istəyirsə, nəticəsinə özü dözsün”. Ermənistanda revanşistlər bu prosesi xəyanət adlandırır, amma reallıq ortadadır: Ermənistan bu yükün altında əzilib. Ermənistanın illərlə fantaziya kimi qurduğu “artsax dövləti” indi sadəcə istintaq dosyesinin əlavəsinə çevrilir". T.İsmayılov qeyd etdi ki, Paşinyan bunu həm də Qərbə loyal görünmək üçün edir, ancaq addımlar gecikmiş və yarımçıqdır: “Bu proses Azərbaycansız mümkünsüzdür, çünki Bakının 44 günlük müharibədə yaratdığı yeni reallıq Ermənistana heç bir manevr yeri qoymayıb. Azərbaycan güc tətbiqi ilə bütün xəritəni dəyişdi və Ermənistan indi sadəcə son nəticəni qəbul edir. Paşinyanın Azərbaycanın yük tranzitinə görə təşəkkür etməsi də siyasi təslimiyyətin daha yumşaq formasını xatırladır. O, regionda sabitlik mesajı verərək özünün ”sülh tərəfdarı" obrazını qorumağa çalışır. Amma keçmiş separatizm yükü aradan qalxmayınca bu obraz illüziyadan o yana keçmir".

STM təmsilçisi bildirdi ki, Ermənistan hökuməti sərhəddə delimitasiya ilə bağlı yayılan məlumatları təkzib etməklə həm də iç siyasətdə panikanı azaltmağa çalışır: “Zod qızıl yatağı ətrafında birgə baxış keçirilməsi isə danışıqların tam dayanmadığını göstərən siqnaldır. Əslində tərəflər müntəzəm təmasdadır, sadəcə İrəvan prosesi ictimailəşdirməkdən qorxur. Sərhədlə bağlı spekulyasiyaların artması Ermənistanın daxili siyasi böhranının göstəricisidir. Revanşistlər hər təmasa ”xəyanət" damğası vurur, hökumət isə qorxa-qorxa addımlayır. Ermənistan hökuməti seçkiyə qədər mümkün qədər az səs-küy yaratmaq istəyir, amma separatçılarla bağlı proseslər səhnəni tam silkələyir". Siyasi şərhçi vurğuladı ki, Paşinyan “artsax ermənilərinin qayıdışı qeyri-mümkündür” deyəndə artıq reallığı qəbul etdiyini göstərdi: “O, Azərbaycanla sülh gündəliyinin konturlarını qəbul etməyə məcburdur. Bakı açıq şəkildə prosesi aparır və şərtləri diktə edən tərəfdir. Ermənistan isə sadəcə reaksiyaya məhkumdur. Azərbaycanın gücü qarşısında Paşinyanın manevr imkanları sıfıra enib. Revanşistlər hələ də ”köhnə xəritələr"lə yaşayırlar, amma geosiyasi reallıq onların nə sözünü, nə də imitasiya cəhdlərini ciddiyə alır. Ermənistan daxilində “artsax” yükünün dağılması Paşinyanın addımı kimi göstərilsə də, əslində bu, Azərbaycanın yaratdığı post-müharibə nizamının məcburi davamıdır. Revanşistlər nəinki siyasət, hətta cəmiyyət üzərində də təsir gücünü itirir. Ona görə də onlar son çırpınışlarla prosesləri sabotaj etməyə çalışırlar. Paşinyan hökuməti isə hər dəfə gecikmiş qərarlar qəbul edir və bu gecikmə həm böhranı artırır, həm də onu zəif göstərir". İndi əsas sual budur: Paşinyan “ev tapşırığı”nı sonadək yerinə yetirəcəkmi? T.İsmayılov: “Böyük ehtimalla etməyə məcbur qalacaq, çünki başqa alternativi yoxdur. Ermənistanın ”artsax" qapısını yenidən açmaq lüksü yoxdur - nə gücü var, nə də siyasi dayağı. Azərbaycanın yaratdığı yeni regional düzən bu ideyanı tarixə gömüb. Paşinyanın bütün addımları göstərir ki, o, artıq geri dönüş xəttini çoxdan keçib. İrəvandakı “artsax qıfılı” bir dəfə açılarsa, bu, Ermənistan üçün daha böyük siyasi fəlakət demək olar. Ona görə həmin qapı açılmayacaq, əksinə, üzərinə daha ağır kilidlər vurulacaq. Ermənistan bu dəfə öz mifini özü dəfn edir, tarix isə bunu reallığa gec çatan dövlətin etirafı kimi yazır".

Siyasi ekspertin sözlərinə görə, İrəvanda separatçıların nümayəndəliyinin bağlanacağı xəbəri əslində çoxdan yetişmiş siyasi yükün daşınmaz hala gəldiyini göstərir: “”Joxovurd"un yazdıqları təsadüfi sızma deyil, hakimiyyətin seçki ərəfəsində “köhnə xəritələrdən” qurtulmaq planının açıq siqnalıdır. Separatçıların özlərinin belə bağlanmanı və mümkün həbsləri istisna etməməsi göstərir ki, artıq müdafiə imkanları yoxdur. Ermənistanın hüquq-mühafizə orqanları aydındır ki, bu dəfə işi yarımçıq buraxmaq fikrində deyil. Samvel Şahramanyanın əsas hədəf elan edilməsi isə prosesin təkcə siyasi deyil, həm də hüquqi mərhələyə keçdiyini göstərir. Bu, illərdir Azərbaycana qarşı istifadə edilən separatçı strukturların Ermənistan üçün də təhlükəyə çevrildiyinin etirafıdır. “Zəruri istintaq hərəkətləri” ifadəsi burada çox şeyi gizlədir, amma istiqamət tam aydındır: bu şəbəkə sıradan çıxarılır. Njde İskandaryanın kompüterinin müsadirəsi və saatlarla aparılan axtarışlar isə real əməliyyatdır. Bu addımlar həm də cəmiyyətə mesajdır: “köhnə ideologiya artıq siyasi kapital gətirmir”. Ermənistan daxilində radikal dairələr bu prosesə təbii ki, “xəyanət” damğası vuracaqlar. Amma reallıq budur ki, Ermənistan bu separatçı yükü daşıdıqca həm dövlət kimi zəifləyir, həm də regionda təcrid olunur. Paşinyan hökuməti indi gecikmiş qərarları bir-bir tətbiq edərək görüntünü xilas etməyə çalışır. Bu isə həm daxili gərginliyi artırır, həm də revanşistləri daha aqressiv edir. Amma hökumətin bu dəfə geri dönüş şansı yoxdur, çünki Azərbaycan artıq oyunun qaydalarını dəyişib. Qarabağın separatçı strukturları məhv edildikdən sonra İrəvanda onların saxlanılması Ermənistan üçün daha böyük təhlükə yaradır. Məhz buna görə də hakimiyyət onları seçkiyə qədər səhnədən tam çıxarmaq istəyir. Bu, həm özlərini qorumaq, həm də Qərbə “biz müsbət dəyişirik” mesajı vermək üçündür". Ekspertin sözlərinə görə, prosesin sürətlənməsi ondan xəbər verir ki, İrəvan köhnə ideya ilə seçkiyə getmək istəmir: “Separatçılar isə yaxşı anlayırlar ki, bu dəfə onları nə Moskva, nə də başqa qüvvələr qoruya bilməz. Ermənistanın bu addımı həm daxili hesablaşmadır, həm də Azərbaycanın yaratdığı yeni regional nizamın davamıdır. Nümayəndəliyin bağlanması yalnız simvolik addım deyil, siyasi epoxanın sonuncu səhifəsidir. İrəvan bu səhifəni çevirməyə məcburdur. Separatçıların müqavimət göstərə biləcəyi heç bir real resurs qalmayıb”.

❑ **E.PAŞASOY, “Yeni Müsavat”**




# "İrəvan 200 milyon avroya görə sülhdən imtina edir"

**ReAl Partiyasının sədri Natiq Cəfərli Teleqraf-ın suallarını cavablandırıb.**

Onunla müsahibəni təqdim edirik:

**- Natiq bəy, "Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik" adlı sənəddə Bakı ilə İrəvan arasındakı hazırkı sülh prosesinə ziddiyyət təşkil edən məqamlar nədən ibarətdir?**

- Əslində burada sadə bir məntiq var. Ermənistan könüllü şəkildə Azərbaycan ərazisini tərk etmiş vətəndaşlarına görə Avropa İttifaqından pul almaq istəyir. Rəsmi İrəvan imzalanan sənədə məlum ifadələri salmaqla Qarabağdan öz xoşu ilə Ermənistana köç etmiş insanlar üçün Avropa İttifaqından və onun müxtəlif proqramlarından böyük həcmdə yardımlar almaq niyyətindədir. Amma Ermənistan tərəfi Azərbaycanla imzalanan sənədlərdə və açıqlanan bəyanatlarda bu məsələnin qapandığını söyləyir. Faktiki olaraq, bu gün Bakı- İrəvan xəttində aparılan danışıqlarda ümumiyyətlə bu məsələ yoxdur. Hətta Ermənistanın Baş naziri Nikol Paşinyan dəfələrlə bəyan edib ki, bu məsələ bağlanıb. Ona görə də Azərbaycanla Ermənistan arasında aparılan sülh danışıqlarında bu məsələlər gündəmə gətirilmir.

**- Bu kimi iddialara qarşı Azərbaycanın adekvat addımları necə ola bilər?**

- Sözsüz ki, rəsmi Bakının bu kimi əsassız iddialara qarşı əlində təsirli rıçaqlar var. Ermənistan tərəfi öz maddi maraqlarına görə danışıqlara ziyan vuracaq bu tipli addımlar atan kimi Azərbaycanda da öz növbəsində Qərbi Azərbaycana qayıdış proqramı yenidən gündəmə gəlir. Bu da öz növbəsində Ermənistanda gərgin bir vəziyyət yaradır. Ona görə də bu kimi halların baş verməsi ermənilərin öz günahları ucbatındandır. Erməni tərəfi hər dəfə bu cür addımlar atdıqca Azərbaycan da beynəlxalq hüquqa uyğun olaraq vaxtilə Qərbi Azərbycandan zorla deportasiya edilmiş soydaşlarının geri dönüş haqqını gündəmə gətirir.

**- Rəsmi İrəvanın bu kimi addımları Bakı ilə sülh müstəvisində atılan addımlara necə təsir edəcək?**

- Bütün bunlar onu deməyə əsas verir ki, Ermənistan 5-10 manat Avropadan gələn pula aldanaraq danışıqlarda çox vacib olan məsələyə xəyanət etmiş olur. Bununla da erməni tərəfi özünə ziyan vurur. Çünki hər dəfə bu məsələ beynəlxalq müstəvidə qaldırılanda Azərbaycan tərəfinin əlində kifayət qədər məsələlər var ki, bunlarla Ermənistana təzyiq və yaxud da təsir etsin. Bu baxımdan da Ermənistanla Aİ arasında imzalanan sənədin əsas məğzi Qarabağdan könüllü şəkildə köçən insanlarla bağlı deyil. Həmin sənədin mahiyyətinə diqqətlə baxdıqda söhbətin təxmini iki yüz milyon avroya və müxtəlif yardım proqramlarından getdiyi aydın olur. Onlar daha çox maddi yardıma görə həmin bəndləri ora salmağa çalışıblar.

**- Belə iddialar var ki, Ermənistan tərəfi sülh danışıqları fonunda beynəlxalq hüquq müstəvisində gələcək iddialar üçün mümkün əsaslar yaratmağa çalışır...**

- Azərbaycanın bu kimi sənədlərin ortaya çıxmasına haqlı etirazı keçmiş "Dağlıq Qarabağ" və oradan guya "qaçqın düşmüş insanlar" kimi ifadələrin yer almasıdır. Bu sənəddə həmin ermənilərin Azərbaycana qayıtması məsələsi də yoxdur. Sadəcə olaraq, onların sosial durumu və Ermənistana inteqrasiyası ilə bağlı maddi yardım məsələsi mövcuddur. Azərbaycan tərəfi də haqlı olaraq etiraz edir ki, bu məsələ bağlanıbsa, niyə hansısa beynəlxalq sənəddə o "sözlər" və "ifadələr" yer almalıdır? Bütün bunların fonunda həmin sənədin danışıqlar prosesinə təsiri sıfıra bərabərdir. Burada ermənilərin əsas dərdi Avropa İttifaqından 150-200 milyon avro qoparmaqdan ibarətdir.

# Bakıda Düşənbə söhbəti - Kreml üçün niyə indi?

## Rusiyanın Moskva Bəyannaməsini yada salmasının ilginc səbəbi



**Xəbər verildiyi kimi, Bakıda Azərbaycan-Rusiya siyasi məsləhətləşmələri keçirilib. Rusiya Xarici İşlər Nazirliyinin məlumatına görə, 8-10 dekabr tarixlərində Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin Bakıda Azərbaycan xarici işlər nazirinin müavini Samir Şərifovla məsləhətləşmələr aparıb və Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev tərəfindən qəbul edilib.**

Qeyd olunub ki, məsləhətləşmələr zamanı Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin arasında 9 oktyabrda Düşənbədə MDB Dövlət Başçıları Şurasının iclası çərçivəsində keçirilən görüşdən sonra Azərbaycan-Rusiya münasibətlərinin mövcud vəziyyəti və perspektivləri müzakirə edilib: "İki ölkə liderləri tərəfindən 22 fevral 2022-ci ildə Moskvada imzalanmış Müttəfiq Əməkdaşlığı Bəyannaməsinin müddəalarına uyğun olaraq, bütün istiqamətlərdə siyasi dialoqu daha da gücləndirmək, ticarət, iqtisadi, mədəni və humanitar əməkdaşlığı genişləndirmək öhdəlikləri bir daha təsdiqlənib. Rusiya tərəfi iyunun sonu və iyulun əvvəlində Bakıda saxlanılan 11 Rusiya vətəndaşının tezliklə azad edilməsinin vacibliyini vurğulayıb. Bundan əlavə, Azərbaycan-Ermənistan münasibətləri, "3+3" formatı və Xəzər beşliyi çərçivəsində çoxtərəfli əməkdaşlıq məsələləri müzakirə edilib".

Moskva Bəyannaməsi Rusiyanın yadına niyə məhz indi düşür? Axı həmin Bəyannamədə başqa bəndlər də var - hansılar ki, Moskva əməl etməyib. Nəhayət, Düşənbədə Putinin AZAL təyyarəsi ilə bağlı İlham Əliyevə verdiyi vədlər də var. Onlar necə olacaq? Yoxsa Moskva AZAL-la bağlı vədləri həmin 11 nəfərin taleyinə bağlayıb?

Politoloq Yusif Bağırzadə "Yeni Müsavat"a bildirdi ki, Rusiya, Cənubi Qafqazda və ümumilikdə postsovet məkanında geosiyasi təsirini qorumağa və gücləndirməyə çalışır. Bunun üçün də müxtəlif vasitələrdən istifadə edir ki, bu da bir sıra hallarda ayrı-ayrı ölkələrin maraqlarına toxunur və haqlı olaraq tənqidə səbə olur: "Əslində, Bakıda keçirilən son siyasi məsləhətləşmələr də Rusiyanın Azərbaycanla münasibətlərindəki problemləri və paradoksal yanaşmalarını ortaya qoyur. Rusiya, 2022-ci ildə imzalanan Moskva Bəyannaməsində üzərinə bir sıra öhdəliklər götürsə də, bu öhdəliklərin zamanla yerinə yetirilmədiyi və Rusiyanın münasibətlərinin müttəfiqlik münasibətlərinə uyğun gəlmədiyi məlum həqiqətlərdir. Belə olan halda, rəsmi Moskvanın, bəyannamənin bəndlərinə indi yenidən diqqət ayırmasını öz maraqlarını qorumaq və bunu qarşı tərəfin uzunmüddətli maraqlarını nəzərə almadan həyata keçirmək cəhdi kimi qəbul etmək olar. Başqa sözlə, Rusiyanın bu bəyannaməyə indi daha çox diqqət ayırması, yalnız ikitərəfli münasibətlərin yenidən nəzərdən keçirilməsi ilə bağlı deyil, həm də regionda güc mübarizəsi və geosiyasi təsirin möhkəmləndirilməsi cəhdidir. Yəni Rusiya hələ də Azərbaycanla münasibətləri yalnız öz geosiyasi məqsədlərini güdmək üçün istifadə etməyə çalışır. Elə haqqında danışılan 11 nəfər Rusiya vətəndaşının azad olunmasını tələb etməklə də, Azərbaycanı öz maraqlarına uyğun hərəkət etməyə məcbur etməyə çalışır. Bu yanaşma isə özündə qarşılıqlı etimad yaratmaqdan çox, təzyiq və məcburiyyət üzərində qurulmuş bir siyasəti ehtiva edir".

Politoloq qeyd etdi ki, Ukrayna müharibəsi və beynəlxalq sanksiyalar səbəbindən ciddi təcrid vəziyyətinə düşən Rusiyanın xarici siyasətdəki təzyiq və manevr qabiliyyətinin xeyli azaldığını Moskva sanki anlamır: "İndi ölkələrə, xüsusilə də Azərbaycan kimi Cənubi Qafqazın lider ölkəsi olan, öz müstəqil xarici siyasət kursunu davam etdirən bir ölkəyə qarşı təzyiq siyasəti hər hansı bir nəticə verməyəcək. Əgər Rusiya həqiqətən də qarşılıqlı faydalı əməkdaşlıqda maraqlıdırsa, o zaman Azərbaycanla münasibətləri daha şəffaf, qarşılıqlı etimada dayanan və uzunmüddətli əməkdaşlıq üzərində qurmalıdır. Yalnız bu halda Rusiya-Azərbaycan münasibətlərinin dayanıqlılığından danışmaq olar. Başqa sözlə desək, Rusiya qarşısındakı ölkələri yalnız Moskvanın maraqlarına xidmət edən ölkələr kimi deyil, eyni zamanda uzunmüddətli və qarşılıqlı fayda təmin edəcək, bərabərhüquqlu strateji tərəfdaşlar kimi görməlidir".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**



# Moskva yeddi bəndi rədd etdi

**Rusiya xarici işlər naziri Sergey Lavrov faktiki olaraq ABŞ Prezidenti Donald Tramp tərəfindən təklif olunan 28 maddəlik sülh planının 7 əsas bəndini rədd edib. Teleqraf xəbər verir ki, bu barədə ABŞ-nin Müharibə Araşdırmaları İnstitutu (ISW) məlumat yayıb.**

ISW-yə görə, həmin bəndlər aşağıdakılardır:

Zaparojye və Xerson vilayətlərində cəbhə xəttinin dondurulması;

Zaparojye AES-in fəaliyyətinin Rusiya yox, Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) nəzarətində bərpa olunması;

1997-ci il sərhədlərinə geri dönülməsini tələb etmədən NATO-nun gələcək genişlənməsinin dayandırılması;

Avropa ölkələrinin qırıcı təyyarələrinin Polşada yerləşdirilməsinə icazə verilməsi;

Ukraynaya etibarlı təhlükəsizlik zəmanətlərinin verilməsi;

Ukraynanın suverenliyinin təsdiqlənməsi;

Dini azlıqların qorunmasına dair Avropa İttifaqı normalarının tətbiqi.

ABŞ institutu həmçinin vurğulayıblar ki, Kremlin sülh danışıqlarına münasibəti 2025-ci ildə də dəyişməyib. Rusiya Prezidenti Vladimir Putin bundan əvvəl bəyan edib ki, Moskva heç kimə güzəştə getmək və ya ilhaq edilmiş əraziləri təhvil vermək niyyətində deyil.

YENİ MÜSAVAT
N 227 (8837) 13 dekabr 2025

# Konqres üzünü Azərbaycana çevirir? - Mühüm gözlənti

## ABŞ-Azərbaycan strateji tərəfdaşlığına əsas əngəl aradan qalxa bilər

**Xəbər verildiyi kimi, ABŞ Konqresində Azərbaycana yardım məhdudiyyətlərini ləğv etməklə bağlı qanun layihəsi təqdim edilib. Bu barədə Konqresin saytındakı məlumatda deyilir.**

Layihə Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsində irəli sürülüb. Onun müəllifi Nümayəndələr Palatasının üzvü Luna Anna Paulinadır.

Söhbət, təbii ki, Azadlığı Müdafiə Aktına bədnam “907-ci düzəliş”dən gedir. Hansının qüvvəsi ki, bu il prezident Donald Tramp tərəfindən bir illiyinə dayandırılıb. Ancaq onun tam ləğvini parlament reallaşdıra bilər.

Bir qayda olaraq ermənipərəst mövqe tutan Konqres nəhayət, üzünü Azərbaycana tutacaqmı? Xanım Anna Paulinanın təşəbbüsü hara kimi irəliləyə, Bakı hansı nəticəyə ümid edə bilər? Düzəlişin həmişəlik aradan qaldırılması Azərbaycana, Azərbaycan-ABŞ əlaqələrinə konkret hansı üstünlüklər vəd edir?

Politoloq Oqtay Qasımov “Yeni Müsavat”a bildirdi ki, ABŞ Konqresinin 1992-ci ilin noyabrında qəbul etdiyi Azadlığa Dəstək Aktı adlandırılan “907-ci düzəliş” ədalətsiz bir qərardır və tamamilə ləğv edilməlidir: “O zaman ABŞ Konqresində erməni lobbisinin təsiri altında olan Konqres üzvləri işğala məruz qalmış Azərbaycana qarşı həmin sanksiyanı qəbul etdilər. Bu addım Cənubi Qafqazda sülhün və sabitliyin bərqərar olmasına qarşı mənfi bir tendensiyanı özü ilə gətirdi. "907-ci düzəliş" sülhə və sabitliyə qarşı sənədə çevrildi, 10 illər boyu münaqişə davam etdi. Əslində beynəlxalq hüquqa görə ABŞ Konqresi işğalçı Ermənistana qarşı sanksiya tətbiq etməli idi. Ancaq təəssüf ki, işğala məruz qalan tərəfə qarşı sanksiya qəbul etdilər. 2001-ci il 11 sentyabr terrorundan sonra ABŞ beynəlxalq terrorizmlə mübarizəni özünün əsas prioriteti hesab etdiyindən və Azərbaycanın da dəstəyinə ehtiyac duyduğundan məhz bu sanksiyanın fəaliyyəti prezident sərəncamı ilə hər il olmaqla qüvvədən salınmış oldu. Amma bütün hallarda Konqresin qəbul etdiyi sənəd Prezident fərmanı ilə deyil, Konqresin özü tərəfindən ləğv olunmalıdır. Co Bayden administrasiyası tərəfindən ədalətsiz olaraq yenidən “907-ci düzəliş” 2022-2023-cü illərdə aktivləşdirildi və bu addım ABŞ-la Azərbaycan arasında münasibətləri gərginləşdirdi. Donald Tramp administrasiyası isə ölkəsinin bu yanlışını düzəltmək üçün addımlar atmağa başladı və bu ilin 8 avqustunda Vaşinqtonda Prezidentlər arasında keçirilən görüşdə iki ölkə arasında strateji tərəfdaşlıq və əməkdaşlıqla bağlı razılaşma əldə olundu. Donald Trampın sərəncamı ilə “907-ci düzəliş”in fəaliyyəti 1 illiyinə dayandırıldı".

O.Qasımov qeyd etdi ki, indi isə bunun ardınca ABŞ Konqresinin Nümayəndələri Palatasının üzvü tərəfindən irəli sürülən müsbət təşəbbüs “907-ci düzəliş”in Konqresin özü tərəfindən ləğv olunmasını nəzərdə tutur: “Bu təşəbbüsün Trampın istəyi ilə gerçəkləşdiyi ehtimal oluna bilər. Lakin bu təşəbbüsə Konqresdə müqavimət olacağını düşünürəm. Çünki hazırda erməni lobbisinin ABŞ Konqresində təsir imkanları qalır. Ona görə də düzəlişin Konqresdə ləğvi kifayət qədər mürəkkəb prosedur olacaq. Amma məsələnin sonda bizim istədiyimiz kimi nəticələnməsi imkanları az deyil. Çünki bu düzəlişin ləğv olunmasını istəyən qüvvə Prezident Tramp və Respublikaçılardır. Düzəlişin ləğv olunmasına qarşı olan qüvvə isə Demokratlar Partiyasıdır ki, onlar da Konqresdə azlıq təşkil edir. Bu amil də düzəlişin ləğvi şanslarını artırır. Hər bir halda o sənədin ləğv olunması çox gərgin iş tələb edəcək. Ona görə də hesab edirəm ki, ”907-ci düzəliş"in yaxın dövrdə Nümayəndələr Palatası tərəfindən ləğv olunması ciddi bir uğur ola bilər".




Politoloqun fikrincə, “907-ci düzəliş” Konqres tərəfindən həmişəlik aradan qaldırılması Azərbaycan-ABŞ əlaqələrinin strateji, hərbi sahələri əhatə edən səviyyəyə yüksəlməsinə təkan verə bilər. Eyni zamanda, ABŞ-ın Azərbaycana silah satışı, müəyyən yardımlar etməsi üçün maneə aradan qalxmış olar".

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

# Sülhdən sonra Araik azadlığa buraxılır? - İrəvanda eyforiya

## Azər Həsrət: “Qarabağ separatçıları Azərbaycan vətəndaşlarıdırsa, niyə başqa dövlətə təhvil verilməlidir?”

**Ermənistanın baş naziri Nikol Paşinyan Bakıda mühakiməsi davam edən hərbi canilərlə bağlı sualı cavablandırıb. Deyib ki, münaqişə mərhələsində məsələni həll etmək mümkün deyil, bunun üçün sülh yaranmalıdır: “Bundan sonra məsələni mərhələli şəkildə həll etmək mümkün olacaq”.**



Politoloq Armen Baqdasaryan isə “Hraparak” nəşrinə bildirib ki, Azərbaycandan oxşar eyhamlar eşidilsəydi, bu bəyanatın müəyyən dəyəri olardı: “Ermənistan hakimiyyəti lazım olanda deyir ki, sülh üçün imzaladıqları hansısa sənəddə hər şey qarşılıqlılığa əsaslanır. Əgər Azərbaycandan eyhamlar gəlsəydi ki, bilirsiniz, sülh sazişi imzalanandan sonra biz bu məsələni müzakirə edə bilərik, deyərdik ki, görünür, belə olacaq, amma Azərbaycan həmin məhbusları orada şəxsi məqsədləri üçün saxlayır. Bu məhkəmələr Ermənistanın əleyhinə yönəldilə bilər”, - Bağdasaryan bildirib.

Təpədən-dırnağa cinayətkar olan bu ünsürlərin Azərbaycan xalqına qarşı işlətdikləri cinayətləri, ərazilərimizdə bölücülüklə, separatçılıqla məşğul olmuş olduqlarını nədənsə yada salmaq istəmirlər. Bir qrup insan Ermənistanda belə eyforiya yaradır ki, guya separatçı “liderlər” qaytarılacaq. Ermənistandakı bəzi qüvvələr Bakıda saxlanılan hərbi canilərlə, separatçılarla bağlı proses aparmağa cəhd edirlər, amma əslində onların “hüquqlarının qorunması” da həmin şəxsləri maraqlandırmır. Onların özlərini reklam etməyə, Azərbaycanı ittiham etməyə çalışırlar. Zaman-zaman Azərbaycan humanist addımlar atıb müəyyən hərbi cinayətkarları Ermənistana qaytarır. Amma Bakıda saxlanılan separatçı “liderlər” o cinayətlərə rəhbərlik etmiş adamlardır.

Yekun sülh müqaviləsindən sonra hərbi canilər Ermənistana təhvil verilə bilərmi?

Mövzu ilə bağlı siyasi şərhçi Azər Həsrət “Yeni Müsavat”a danışıb. Siyasi şərhçi qeyd edib ki, indiki halda Ermənistanın və ya Qarabağın hərbi cinayətkarlarının qaytarılmasından söhbət gedə bilməz: “Çünki onlar Azərbaycan xalqına qarşı həqiqətən də çox ağır cinayətlər törədiblər və onların əməlləri məhkəmədə üzlərinə oxunur. Barələrində irəli sürülən iddiaları rədd edəcək heç bir tutarlı dəlil və sübut yoxdur. Onlar özləri də etiraf edirlər ki, bu əməlləri törədiblər. Əgər cinayət varsa, cəza da olmalıdır - istər erməni olsun, istər başqası. Azərbaycan onları erməni olduqlarına görə mühakimə etmir, ümumiyyətlə Azərbaycan heç kimi etnik mənsubiyyətinə görə mühakimə etmir və etməz də. Bizim ölkədə belə bir yanaşma yoxdur. Sadəcə olaraq, həmin şəxslər konkret cinayətlər törədiblər. Üstəlik, məhkəməyə cəlb edilənlərin əksəriyyəti Azərbaycan vətəndaşlarıdır. Yəni onların erməni millətindən olması nəyi dəyişir? Əgər onlar Azərbaycan vətəndaşlarıdırsa, Azərbaycan qanunları qarşısında da cavab verməlidirlər və verirlər də”.

A.Həsrət bildirib ki, orada Vardanyan var, o, Ermənistan vətəndaşıdır, əvvəllər Rusiya vətəndaşı olub: “Amma bunun heç bir fərqi yoxdur. O da cinayət əməllərini Azərbaycan Respublikasının ərazisində törədib və buna görə də mühakimə olunur. Sülh müqaviləsi imzalandıqdan sonra bu şəxslərin Ermənistana qaytarılıb-qaytarılmaması məsələsinə gəldikdə isə: birincisi, Azərbaycan öz vətəndaşlarını niyə xarici ölkəyə verməlidir? Araik Arutyunyan da daxil olmaqla, Qarabağ separatçıları və terrorçuları Azərbaycan vətəndaşlarıdırsa, Azərbaycan niyə onları hansısa başqa dövlətə təhvil verməlidir?

İkincisi, Azərbaycan dövləti əlbəttə ki, humanistdir, yeri gələndə bağışlamağı da bacarır. Amma düşünürəm ki, indiki mərhələdə bağışlanma məsələsinin gündəmə gətirilməsi düzgün deyil. Onların əfv olunması və ya hansısa üçüncü ölkəyə təhvil verilməsi haqqında danışmaq üçün hələ çox tezdir".

Azər Həsrət qeyd edib ki, hazırda əsas diqqət sülh müqaviləsinə yönəldilməlidir: “İki dövlət arasında geniş, əhatəli sülh müqaviləsi imzalanmalıdır. Ondan sonra bütün məsələlər müzakirə oluna bilər. Lakin indiki mərhələdə Azərbaycanın həmin erməniləri guya hər hansı şəxsi və ya siyasi məqsədlər üçün istifadə etməsi barədə deyilənlər heç bir ciddi əsasa söykənmir. Bir daha vurğulayıram ki, onların əməlləri göz önündədir, bütün dünyanın gözü qarşısında açıq məhkəmə keçirilir, bütün suallara cavab vermələri üçün onlara tam şərait yaradılır, özlərini müdafiə etmək imkanları təmin olunub və olunur. Buna görə də heç kəs manipulyasiya etməsin”.

❑ **Xalidə GƏRAY, “Yeni Müsavat”**



# Həmrəylikdən zəhərlənmə

Zamin HACI
zaminhaci@gmail.com

**Mirzə Cəlilin "Sirkə" adlı felyetonunda 3-4 nəfər ədib balıq alıb yemək istəyirlər, mübahisə edirlər ki, ana dilimizdə "balıq" demək düzgündür, yoxsa "balıx". Klassiklər belədir, həmişəyaşar olurlar. Məsələn, Neftçala icra başçısının plaş teması ortaya çıxanda dəyərli oxucumuz Vüsal müəllim məktub yolladı, deyir bu temada Qoqolun "Şinel" əsəri tipdə nəsə yazmaq lazımdır.**

Milli Məclisin çətiri altında ana dili müzakirələrimizin doğurduğu nəticələr təxminən "Sirkə" hekayəti istiqamətində gedir. Anar-Zərdabi heykəl münaqişəsindən artıq bəhs etmişik, indi isə Vətəndaş Həmrəyliyi Partiyasında həmrəylik əldən getməkdədir. Sən demə ana dili temasında iclasda deputat Rafael Hüseynov VHP sədri Sabir Rüstəmxanlının sözünü kəsmişdir. Deyib 3 dəqiqə reqlament var, artıq danışma.

İşin gülməli tərəfi isə odur ki, sən demə Rafael müəllim Milli Məclisdə elə... Vətəndaş Həmrəyliyi Partiyasını təmsil edirmiş! Ona görə VHP üzvləri qəzəblənib iclas çağırmış, Rafael müəllimə töhmət elan etmişlər. Dünən mən bu cızmaqaranı edən anlarda siyasi kuluarlarda (o qədər geopolitik dəhlizlərdən bəhs edirik, bu termin artıq yadımızdan çıxmaqdadır) şayiələr dolaşırdı, deyirdilər bəlkə də Rafael müəllim istefa verəcəkdir. Beləliklə parlamentdə müxalifət partiyaları fraksiyasının sayı azalacaqdır.

Çox qorxulu vəziyyətdir. Yeni seçkilər çağırmaq lazım gələr.

Nəticədə Rafael müəllim özü də hansı partiyanın üzvü olduğunu öyrənmiş oldu. Hər ziyanda bir xeyir vardır. Ana dili müzakirələri davam eləsə bəlkə ətin qiyməti düşər.

Bəzi prosedurlara zaman lazımdır. Məsələn, Ramiz müəllim "fıs" çıxan ilk günlərdə AMEA prezidenti İsa Həbibbəyli arxivlərindən onun barəsində oxuduğu mədhiyyələri silməklə məşğul idi, ona görə münasibət öyrənə bilməmişdilər. Az sonra bir az rahatlaşdı, bəyan etdi ki, biz Ramiz Mehdiyevin barəsində məhkəmə hökmünü gözləyirik, ondan sonra dərhal akademiklikdən qovacağıq. Dünən isə İsa müəllimin mətin mübarizəsi kulminasiya nöqtəsinə çatıb. Sitat: "Ramiz Mehdiyevin Azərbaycanın müstəqil dövlətçiliyinə qarşı etdiyi hərəkətlər və barəsindəki ittihamlar onun akademiyanın üzvü qalmasına qətiyyən imkan vermir. Məsələyə akademiyada baxılacaq və lazım olan qərar qəbul ediləcək". Bəs məhkəmə qərarı gözləyirdiniz, o nə oldu?

Yeri gəlmişkən, bizim AMEA əslində tarixən dövlətçiliyə qarşı ekstremist ünsürlərin oylağı olmuşdur. Meydan hərəkatı vaxtı AXC-ni yaradanlar AMEA institutlarının elmi işçiləri idi və Sovet dövlətini yıxmaq fikrinə düşmüşdülər. Ondan sonra müstəqillik dövründə AMEA prezidenti Eldar Salayev Rəsul Quliyevin vədlərinə aldanıb tora və hətta bir-iki aylıq zindana da düşmüşdü. Yəni, bizim alimlər həmişə siyasiləşiblər, hökumətin və ya müxalifətin əlində oyuncaq kimi istifadə ediliblər. Elmlə məşğul olmayıblar, ya da onlara bu imkan verilməyib - hansını istəsəniz səsə qoyaq, qərar çıxaraq. Demokratiya şəraitində yaşayırıq. Hələ üstəlik vətəndaş həmrəyliyimiz var (bax: yuxarı), ortaq qərara gəlməyimiz çətinlik yaratmaz.

Mirzə Cəlilin adını çəkdiyim əsərində ədiblər balıqla yemək üçün bazardan sirkə alırdılar, lakin başları ana dili mübahisəsinə qarışdığı üçün sirkənin heç ağzı açılmırdı, süfrədə qalırdı. Doğrusu, balığı sirkə ilə yemək olurmuş, bunu mən ilk dəfə o hekayədən öyrənmişdim. Yəqin yüz il qabaq belə mətbəx ənənəsi olub. İndi əsasən narşərab istifadə edilir. Bu tip mövzular kimsə yeməkdən zəhərlənəndə də ortaya çıxır. Təzəlikcə Gəncədə 8 uşaq dönərdən zəhərlənmişdi, dönərxana sahibi belə maraqlı açıqlama verdi: "Günah özlərindədir, dönəri gərək alandan sonra yarım saat ərzində yeyəsən, bunlar isə çox saxlayıb". Sual ortaya çıxdı ki, dönərin saxlama müddəti nə qədərdir. Bu haqda Qida Təhlükəsizliyi Agentliyinin 2024-cü ildə çıxardığı 49 saylı "Dönər emalına və dövriyyəsinə dair sanitariya norma və qaydaları" haqda qərar var. Orda "Bişmiş dönərin hazırlandığı andan etibarən istehlak müddəti ən çoxu 1 saatdır" yazılıb. Amma elə onun böyründə də "Çiy dönərin bişirilməyə başlandığı andan etibarən yararlılıq müddəti ən çoxu 12 saatdır" cümləsini yazıblar. Necə ola bilər ki, əti açıq havada çiy vəziyyətdə 12 saat, bişmiş 1 saat saxlamaq mümkün olsun? Tərsinə olmalı deyilmi? İndi gəl bundan bir şey anla.

Yazdıq axı, ana dili problemi var.



# Bakı hərəkətə keçdi - Güney Qafqaz üçün sensasion layihə

## Azərbaycanın neft məhsullarının Ermənistana daşınmasında Gürcüstanın yüksək rüsum tələbi alternativ logistika axtarmağı zəruri edir; Qazax-İcevan dəmir yolu işə düşə bilərmi?

**Ötən ay 35 ildən sonra ilk dəfə Rusiya və Qazaxıstandan Ermənistana ünvanlı buğda yüklərinin Azərbaycan və Gürcüstan üzərindən dəmiryolu tranziti həyata keçirildi. Bu günlərdə isə Bakı qonşu ölkəyə neft məhsulları satmaq barədə qərar verdi.**

Artıq o da məlumdur ki, Gürcüstan hökuməti Azərbaycan neft məhsullarının Ermənistana ilk dəfə həyata keçiriləcək tranzitinə əlavə rüsum tətbiq etməyəcək. Ancaq bundan öncə Tiflis hər ton üçün fantastik rüsum - 1 km üçün 0.82 dollar tələb etmişdi (Eyni yük üçün Azərbaycan ərazisində tarif cəmi 0.02 dollardır!). Odur ki, sual yaranır: birdəfəlik güzəştdən sonra necə olacaq, Gürcüstan yenə 0.92 dollarda təkid edəcək, yoxsa...

Paradoks ondadır ki, məhz Azərbaycan investisiyaları və infrastruktur layihələri hesabına regionda tranzit ölkəsinə çevrilən Gürcüstan indi öz rəqabət üstünlüklərini zəiflədən addımlar atır, sanki "öz ayağına güllə" atır. Region üçün olduqca həssas bir dönəmdə rəsmi Tiflisin bu davranışı rasional iqtisadi strategiyadan daha çox, regional qarşılıqlı etimadın pozulmasına bənzəyir və anlaşılmır. Eyni zamanda, bu kurs qaçılmaz olaraq Bakını alternativ marşrutlar axtarmaq zorunda qoyur.

Minval Politika-nın etibarlı mənbədən əldə etdiyi məlumata görə, Azərbaycan artıq alternativ logistikanı inkişaf etdirmək üçün öz imkanlarını qiymətləndirməyə başlayıb. "Belə ki, sovet dövründə Bakını Qazaxla birləşdirən və sonra İcevana qədər davam edən dəmir yolu xətti mövcud olub. Artıq Bakı həmin hissəni - Qazaxdan Ermənistanla ənənəvi sərhədə qədər bərpa etmək imkanını nəzərdən keçirir. Əldə etdiyimiz məlumata görə, ilkin qiymətləndirmə başlayıb: tranzitin bir hissəsinin - Gürcüstan asılılığından azad edəcək hissənin mümkün bərpası üçün texniki parametrlər, xərclər və müddətlər öyrənilir. Daha sonra yüklər sərhədi avtomobil yolu ilə keçə və Ermənistanın daha dərin hissələrinə gedə bilər. Bu, müasir logistika baxımından tamamilə mümkün bir haldır", - mənbə sayta deyib.

Eyni zamanda, yol marşrutları variantının araşdırıldığı bildirilir. "Marşrut hələ dəqiqləşdirilməyib, alternativ dəhlizlər və onların səmərəliliyi müzakirə olunur. Lakin belə müzakirələrin aparılması faktının özü çox şeydən xəbər verir: Azərbaycan daha Gürcüstanı yeganə və ya əvəzolunmaz tranzit ölkəsi qismində görmür. Burada vacib siyasi siqnal da var. Əgər kimsə logistik baxımdan Bakını özündən asılı vəziyyətə sala biləcəyini düşünürsə, bu, böyük yanlışlıqdır", - məlumatda vurğulanır.

Azərbaycan Gürcüstanı bu şəkildə cəzalandıra bilərmi? Ermənistana köhnə yol nə dərəcədə uğurla bərpa ola bilər və hansı müddətə?

Professor Qabil Hüseynlinin sözlərinə görə, təkcə neft məhsullarını deyil, Ermənistana göndərilən taxılı da Bakı-İcevan dəmir yolu yolu ilə ötürmək mümkündür: "Yeni yüklər Qazax rayonundan Gürcüstana deyil, birbaşa Ermənistan ərazisinə daxil ola bilər. Mal və məhsullar Gürcüstan vasitəsilə daşındıqda ixracatçı tərəf iki ölkəyə tranzit haqqı ödəməli olur. Lakin Birinci Qarabağ müharibəsi dövründə Bakı-İcevan dəmir yolu Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılıb. Həmçinin dəmir yolunun keçdiyi Qazax rayonunun Barxudarlı və Sofulu kəndləri işğal altındadır. Ermənilər Barxudarlı və Sofulu stansiyalarını yararsız hala salıblar. Bu baxımdan, Qazaxıstan taxılının və Azərbaycan neftinin dəmir yolu ilə Ermənistana ixracı Qazax rayonunun işğal altındakı 3 anklav kəndinin Azərbaycana qaytarılması məsələsini aktuallaşdırır".

Q. Hüseynli hesab edir ki, Zəngəzur dəhlizi ilə yanaşı, Bakı-İcevan dəmir yolu xəttinin bərpası Gürcüstanın addımları fonunda bir tələbə çevrilir: "Sadəcə, bu layihəni işə salmaq üçün ilkin addımlar atılmalıdır. Çünki dəmir yolunun bərpası zaman tələb edir. Ancaq hər iki tərəf üçün iqtisadi üstünlükdür. Gürcüstana tranzit ödənişi etməkdənsə, xərc çəkib Qazax-İcevan yolunu bərpa etmək birdəfəlik can qurtarmaqdır. İntəhası, Ermənistan da bir hərəkət etməlidir.

Paşinyan hökuməti 2026-cı ilin iyun ayında keçiriləcək parlament seçkiləri öncəsi və hazırda Ermənistanda etirazların başladığı bir vaxtda bu addımı atmaqdan çəkinəcək. Ancaq seçkilərdən sonra işğal altında qalan yaşayış məntəqələrinin Azərbaycana qaytarılması istiqamətində addımlar ata bilər".

Q. Hüseynli Gürcüstanın addımlarını xoşagəlməz sayır və münasibətlərdə müəyyən gərginliyə yol açacağını ehtimal edir: "Tiflis Zəngəzur dəhlizini istəmir. Özünün tranzit ölkə kimi əhəmiyyətinin azalmasından qorxur. Eyni ilə İran kimi düşünür. Amma Gürcüstan da bu dəhlizdən faydalana bilər. Hər bir halda, bu məsələ siyasi yox, iqtisadi-logistik mahiyyət daşıdığı üçün Cənubi Qafqaz ölkələrinin "qızıl orta" tapacağına inanıram. Bölgədə sülhün və inkişafın alternativi yoxdur".

❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat"



## Azərbaycan və Ermənistan nümayəndələri Zod yatağında

**Zod mədəninin sərhəd hissəsində Azərbaycan və Ermənistan nümayəndələri tərəfindən delimitasiya və demarkasiya ilə əlaqədar birgə sahə tədqiqat işləri aparılıb.**

Teleqraf xəbər verir ki, bu barədə Ermənistan baş nazirinin müavini Mqer Qriqoryanın ofisindən yerli KİV-ə bildirilib.

Ofis qeyd edib ki, sərhədlərin delimitasiya və demarkasiyası Azərbaycan və Ermənistanın sərhəd komissiyaları tərəfindən razılaşdırılmış əsasnamə ilə tənzimlənir.

Mqer Qriqoryan bundan əvvəl bəyan etmişdi ki, "Tramp yolu" ilə əlaqədar olaraq, delimitasiya və demarkasiya prosesi növbədənkənar qaydada Sünik vilayətində (Qərbi Zəngəzur) həyata keçirilə bilər.

YENİ MÜSAVAT
N 227 (8837) 13 dekabr 2025

# Qərbin Zəngəzur planı: Tramp layihəsi pozula bilər?

## Avropa İttifaqı ABŞ liderinə qarşı çıxaraq TRIPP layihəsini sabotaj edir - deputat dörd səbəbi sadaladı




**Məlum olduğu kimi, dekabrın 2-də Ermənistan və Avropa İttifaqı (Aİ) Brüsseldə yeni strateji tərəfdaşlıq gündəliyini qəbul ediblər. Həmçinin Ermənistan-Aİ Tərəfdaşlıq Şurasının 6-cı iclası keçirilib. Sənədi Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan və Aİ-nin Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Kaya Kallas imzalayıb.**

Belə bir vaxtda "Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik" adlı sənəddə üzə çıxan məqamlar isə Cənubi Qafqazda sülh prosesinə ciddi təhdid yaradır. Artıq Azərbaycan Xarici İşlər Nazirliyi məsələyə sərt reaksiya verib. Qurum bildirir ki, sənəddə postmünaqişə dövründə reallıqları təhrif edən və bütövlükdə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinə zidd olan bir sıra məsələlərin prioritetləşdirilməsi ciddi narahatlıq doğurur. Vurğulanır ki, Aİ-Ermənistan strateji tərəfdaşlıq sənədində "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) layihəsinə bir dəfə belə istinad edilməməsi ciddi narahatlıq doğurur.

Xatırladaq ki, bu il avqustun 8-də Azərbaycan və Ermənistan rəsmiləri Vaşinqtonda iki ölkə arasında sülh müqaviləsinin mətnini paraflayıblar. Oval ofisdə ABŞ prezidentinin iştirakı ilə tərəflər görüşün nəticələri haqda bəyannamə də imzalayıblar. Bəyannaməyə əsasən, Ermənistanın cənubundan keçməklə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz əlaqə yaranacaq. TRIPP adlanan bu marşrut Ermənistanın suverenliyini, ərazi bütövlüyünü və yurisdiksiyasını qoruyub saxlayacaq.

"Ermənistan-Türkiyə münasibətlərinin tənzimlənməsi və sərhədin açılması bu gün tamamilə başqa kontekst əldə edib".

Bunu Ermənistan Baş naziri Nikol Paşinyan deyib.

"TRIPP (və ya Zəngəzur dəhlizi) layihəsi çərçivəsində Ermənistan-Türkiyə sərhədinin açılması Mərkəzi Asiyadan Avropa İttifaqına dəmir yolu və avtomobil nəqliyyatı əlaqəsinin qurulması, yeni boru kəmərləri və yeni elektrik ötürücü xətlərinin davamı üçün imkan deməkdir", - o bildirib.

Paşinyan əlavə edib ki, gələcəkdə Mərkəzi Asiyadan Avropaya yaşıl hidrogen boru kəməri çəkiləcək: "İndi Ermənistan-Türkiyə münasibətlərinin normallaşması və sərhədin açılması o deməkdir ki, həmin mümkün boru kəməri üçün əlavə bir marşrut yaranacaq ki, bu da həm region ölkələri, həm də Avropa İttifaqı ölkələri üçün sərfəlidir".

Avropa İttifaqı Zəngəzur dəhlizinə qarşıdırmı? "Tramp marşrutu" layihəsi pozula bilərmi?

Deputat Elçin Mirzəbəyli "Yeni Müsavata söylədi ki, yeni strateji gündəliyin imzalanması regionun siyasi gündəmini yenidən aktuallaşdırıb: "Bu sənəd Ermənistan tərəfindən "strateji tərəfdaşlıq" kimi təqdim olunsa da, onun məzmununda Cənubi Qafqazda sülh prosesini zədələyən, postmünaqişə reallıqlarını təhrif edən və Azərbaycanın legitim maraqlarına zidd olan məqamlar açıq şəkildə görünür. Azərbaycan Xarici İşlər Nazirliyinin verdiyi reaksiyanın əsas ağırlıq nöqtəsi, sənəddə Ermənistan-Azərbaycan münasibətlərində formalaşmış yeni reallıqların qəsdən təhrif olunması ilə bağlıdır. Brüssel sənədində 2020-ci ildən sonra yaranmış geosiyasi nizamın şərti və birtərəfli təsviri, Azərbaycanın ərazi bütövlüyünün bərpası gizlədilməsi, regionda sülhü təşviq edən layihələrin məqsədli şəkildə arxa plana keçirilməsi Aİ-nin balanssız siyasətinin göstəricisidir. Ən diqqətçəkən məqam isə Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu (TRIPP) layihəsinə heç bir istinadın olmamasıdır. Halbuki həmin layihə 2025-ci ilin avqustunda Vaşinqtonda, ABŞ prezidentinin iştirakı ilə razılaşdırılıb və region üçün tarixi əhəmiyyət daşıyan yol və kommunikasiya dəhlizinin açılmasını ehtiva edir. Bu, Aİ-nin mətnə qəsdən siyasi filtr tətbiq etdiyini göstərir".

Deputat qeyd etdi ki, Avropa İttifaqı dörd səbəbdən TRIPP layihəsini görməzdən gəldi: "Bunlardan birincisi Ermənistan üzərində təsir mexanizmini artırmaq istəyi ilə bağlıdır. Brüssel uzun müddətdir ki, Ermənistanı tamamilə öz təsir orbitinə salmağa çalışır. Lakin TRIPP layihəsi Ermənistanın iqtisadi və geosiyasi asılılığını azaldır, onu regional əməkdaşlığa bağlayır.

İkinci amil Avropa İttifaqının qeyri-rəsmi şəkildə İran marşrutunu dəstəkləməsi ilə bağlıdır. Söhbət Cənubi Qafqazla Avropanı birləşdirən kommunikasiya xətlərinin Ermənistan əvəzinə İran üzərindən keçməsinə üstünlük verilməsindən gedir. TRIPP marşrutu isə İrəvanın ərazisindən keçərək həm Ermənistanın iqtisadi qapılarını açar, həm də regiondakı güc balansını dəyişə bilər".

E.Mirzəbəyli dedi ki, üçüncü məqam ABŞ-Aİ geosiyasi rəqabətinin Zəngəzur xətti üzrə təzahürü ilə bağlıdır: "Vaşinqtonda imzalanmış sənədin Avropa İttifaqı tərəfindən müxtəlif manipulyativ elementlərlə bloklanması transatlantik birlikdə çatların olduğunu göstərir. Bu o deməkdir ki, Avropa İttifaqı ABŞ-ın regionda aparıcı rol almasını istəmir. Sonuncu amil isə Azərbaycanın gücələnən mövqeyinin Brüsseli narahat etməsi ilə əlaqəlidir. TRIPP marşrutu Azərbaycanı regiondakı əsas logistika, enerji və nəqliyyat mərkəzi rolunu daha da gücləndirir. Bu isə bəzi Avropa dövlətlərinin uzunmüddətli geoiqtisadi planlarına uyğun gəlmir".

Onun fikrincə, Aİ-nin əsl narahatlığı regional layihələrin liderliyinin tamamilə və həmişəlik Azərbaycanın nəzarətinə keçməsi, Türkiyənin Cənubi Qafqazda təsirinin daha da artması, Ermənistanın Qərbdən iqtisadi və maliyyə asılılığının tamamilə sıradan çıxması, ABŞ-nin regionda açar mövqeyə sahiblənməsi ilə bağlıdır: "Bu səbəbdən Zəngəzur dəhlizi ilə bağlı siyasi sabotaj cəhdləri müşahidə olunur. Amma TRIPP layihəsinin pozulması real görünmür. Bunun səbəbi təkcə ABŞ-ın iştirakı deyil, həm də dəhlizin regionun iqtisadi xəritəsini yenidən formalaşdırması, Azərbaycanın əsas ərazisinin Naxçıvanla bağlantısının Cənubi Qafqazın şaxələnmiş logistika şəbəkəsinin əsas halqasına çevriləcəyidir. Həmçinin nəzərə almaq lazımdır ki, Ermənistanın özü bu dəhlizə iqtisadi möhtacdır. Çünki alternativ marşrutlar onun iqtisadi dirçəlişi üçün həyati əhəmiyyət daşıyır. Digər tərəfdən unutmaq lazım deyil ki, TRİPP Ankara, Bakı, Astana və digər Mərkəzi Asiya paytaxtları üçün vahid geosiyasi məntiqlə uzlaşır. Bu, təkcə regional deyil, Avrasiya miqyaslı layihədir.

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**



# Tokayev: "Tezliklə sülh sazişi imzalana bilər"

**Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin tezliklə bağlanmasına ümid edir. Dövlət başçısı bu barədə Aşqabadda keçirilən Beynəlxalq Sülh və Etimad Forumunda bildirib.**

Kasım-Jomart Tokayev qeyd edib ki, sülh sazişinin imzalanması Cənubi Qafqazda sabitliyi təmin edəcək.

"Azərbaycan və Ermənistan tərəfindən birgə sülh bəyannaməsinin imzalanması tarixi əhəmiyyət kəsb edir, region və onun hüdudlarından kənarda çoxşaxəli əməkdaşlıq üçün geniş perspektivlər açır", - Qazaxıstan lideri vurğulayıb.

# Rusiyadan Ermənistana açıq təhdid

**"Ermənistan nə vaxtsa Avropa Birliyi və Avrasiya İqtisadi Birliyi arasında seçim etməli olacaq".**



Musavat.com "İnterfaks"a istinadən xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Rusiya baş nazirinin müavini Aleksey Overçuk deyib.

O, Rusiya biznesinin Ermənistana münasibətinin dəyişdiyini bildirib. Qeyd edib ki, hər iki ittifaqda eyni vaxtda qalmağın mümkün olmadığını bildirib.

"Ermənistanın Avropa İttifaqı ilə yaxınlaşmasına gəlincə, biz bu barədə dəfələrlə danışmışıq. Hesab edirik ki, eyni vaxtda iki inteqrasiya birliyinə üzvlük bir araya sığmır. Nə vaxtsa Ermənistan xalqı seçim etməli olacaq", - A.Overçuk əlavə edib.

Onun sözlərinə görə, ümumilikdə Ermənistan və Rusiya yaxşı əlaqələr saxlayır, lakin 2025-ci ildə ölkələr arasında ticarət dövriyyəsi əhəmiyyətli dərəcədə azalıb.

"Rusiya və Ermənistan arasında qarşılıqlı ticarətdən danışırıqsa, bu il Ermənistanla iqtisadi ticarətin azalmasının şahidi olduq. Yadınızdadırsa, ötən il ölkələrimiz arasında ticarət dövriyyəsi 12,4 milyard dollar olub. Bu il, çox güman ki, 6 milyard dollara çatacaq. Bu, çox nəzərə çarpan azalmadır", - Rusiya baş nazirinin müavini vurğulayıb.

Overçukun sözlərinə görə, "Rusiya biznesmenləri Ermənistanla işləməyə ehtiyatla yanaşmağa başlayıblar".

# Ermənistan prezidentindən Zəngəzur anonsu

**"Ermənistan hökuməti Cənubi Qafqazda davamlı sülhün möhkəmləndirilməsinə sadiqdir".**



Teleqraf xəbər verir ki, bu barədə Türkmənistanda keçirilən Beynəlxalq Sülh və Etimad Forumunda Ermənistan Prezidenti Vaaqn Xaçaturyan bildirib.

Onun sözlərinə görə, Ermənistan hökuməti Cənubi Qafqazda davamlı sülhü möhkəmləndirməyi hədəfləyir.

Xaçaturyan avqustun 8-də Vaşinqtonda Ermənistanla Azərbaycan arasında sülh sazişinin paraflanması və regionda nəqliyyat kommunikasiyalarının tam açılması barədə bəyannamənin imzalanmasını xatırladıb.

Ermənistan prezidenti hesab edir ki, "Tramp yolu" layihəsinin həyata keçirilməsi iqtisadi artım, dialoq və ikitərəfli əlaqələri təşviq edəcək: "Tramp yolu"nun həyata keçirilməsi iqtisadi artım, dialoq və insanlararası təmaslara töhfə verəcək, bununla da etimad, sabitlik və rifahı gücləndirəcək. Bu tarixi hadisə Cənubi Qafqazda davamlı sülh, təhlükəsizlik və rifahın yeni bir səhifəsini açdığımıza inam yaradır. Cənubi Qafqazda davamlı sülh, təhlükəsizlik və rifahın yeni bir fəsli açırıq. Ermənistan hökuməti Cənubi Qafqazda davamlı sülhün möhkəmləndirilməsinə sadiqdir".

# Bu il 81 üçəm doğulub



**Cari ilin yanvar-oktyabr aylarında doğulan körpələrdən 2714-ü əkiz, 81-i isə üçəm olub.**

Modern.az xəbər verir ki, bu barədə Dövlət Statistika Komitəsinin aylıq hesabatında qeyd olunub.

Qeyd edək ki, yanvar-oktyabr aylarında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 80802 doğulan körpə qeydə alınıb.

# "Qobu Park"da ölənlərin sayı 5-ə çatdı



**Dekabrın 5-də Bakı şəhəri, Qaradağ rayonu, Lökbatan qəsəbəsi, "Qobu Park-1" yaşayış massivində baş verən yanğın zamanı tüstüdən zəhərlənmiş daha bir nəfər ölüb.**

Modern.az xəbər verir ki, Təbərrük İsmayılova dekabrın 10-da müalicə aldığı xəstəxanada həyatını itirib.

Hadisə nəticəsində ölənlərin sayı 5 nəfərə çatıb.

Qeyd edək ki, yangın Kəlbəcər rayonundan keçmiş məcburi köçkün Emin Həmidovun müvəqqəti məskunlaşdığı mənzildə baş verib. Nəticədə meydana gələn qatı tüstüdən binanın 9-cu mərtəbəsindəki 86-cı mənzildə yaşayan, Füzuli rayonundan keçmiş məcburi köçkün Yusifov Əkrəm Əşrəf oğlunun həyat yoldaşı, 1998-ci il təvəllüdlü Yusifova Zülfiyyə Ramiq qızı və onun övladları, 2016-cı il təvəllüdlü Yusif Yusifov və 2019-cu il təvəllüdlü Məryəm Yusifova, həmçinin 9-cu mərtəbədəki 88-ci mənzildə yaşayan, Füzuli rayonundan keçmiş məcburi köçkün, 1953-cü il təvəllüdlü Yusif Hüseynov ölüblər.

# Qonşuda xərçəng peyvəndi - Azərbaycan sifariş edə bilər

## Onkoloq: "Yüz faiz sağalma şansı o zaman olur ki..."

**Rusiya Elmlər Akademiyasının Qamaleya Epidemiologiya və Mikrobiologiya Mərkəzi xərçəng xəstəliklərinə qarşı hazırlanan ilk test peyvəndlərinin üç seriyasını istehsal edib. Musavat.com xəbər verir ki, məlumata görə, yeni preparatlar mRNT texnologiyası əsasında hazırlanıb və bu sahədə Rusiyada ilk belə genişmiqyaslı klinik yönümlü layihə hesab olunur.**

Mərkəzin direktoru bildirib ki, artıq diaqnostikadan tutmuş mRNT-nin istehsalına və xəstələrdə tətbiqinə qədər bütün icazə sənədləri əldə edilib: "Texnologiyanın istifadəsi üçün tam icazə paketi təsdiqlənib. Bu, həm diaqnostika, həm də mRNT-nin xəstələrdə tətbiqi daxil olmaqla bütün mərhələləri əhatə edir".

Qeyd olunur ki, peyvənd son üç il ərzində intensiv şəkildə sınaqdan keçirilib. Təkrar olunan çoxsaylı doklinik sınaqlar təhlükəsizlik və effektivlik baxımından müsbət nəticələr verib. Hazırda layihə klinik mərhələyə keçmək üzrədir və Rusiya elmi dairələri bunu onkoloji xəstəliklərlə mübarizədə yeni mərhələ kimi qiymətləndirirlər.

Yeniliyin xərçəngin müalicəsində əhəmiyyəti nədir? Azərbaycan təzə peyvənddən sifariş edəcəkmi?

Məlumat üçün bildirək ki, bu günə qədər xərçənglə bağlı iki tip peyvənd mövcuddur: xəstəliyin qarşısını alanlar və artıq yaranmış xərçəngi müalicə etməyə çalışanlar. Xərçəngin qarşısını alan peyvəndlər arasında ən uğurluları HPV və Hepatit B peyvəndidir. HPV peyvəndi serviks, anal, ağız-boğaz və digər HPV ilə əlaqəli xərçənglərin riskini çox ciddi şəkildə azaldır və bütün dünyada ən effektiv xərçəngə qarşı müdafiə vasitələrindən biri sayılır. Hepatit B peyvəndi isə hepatit B virusunun yaratdığı qaraciyər xərçənginin qarşısını alır və on illərdir yüksək uğurla tətbiq olunur. Müalicə məqsədilə hazırlanan xərçəng peyvəndləri isə daha mürəkkəb sahədir. Bunlardan bəziləri təsdiqlənib və məhdud da olsa fayda göstərib. Məsələn, T-VEC adlı onkolitik virus əsaslı peyvənd melanomanın bəzi növlərində istifadə olunur və bəzən şişin ölçüsünü kiçildə bilir. Sipuleucel-T (Provenge) isə prostat xərçənginin irəliləmiş mərhələlərində xəstənin öz immun hüceyrələrindən hazırlanır və həyat müddətini bir qədər uzatdığı üçün FDA tərəfindən təsdiqlənib. Buna baxmayaraq, bu peyvəndlərin heç biri xərçəngi tamamilə aradan qaldıran müalicə sayılmır.

Müalicəvi xərçəng peyvəndlərinin çox böyük hissəsi ya sınaqlarda uğursuz olub, ya da gözlənilən təsiri verməyib. Məsələn, MAGE-A3 peyvəndi melanoma və ağciyər xərçəngi üçün böyük ümidlər yaratsa da, son mərhələ sınaqlarda təsir göstərmədiyi üçün dayandırılıb. GVAX adlı müxtəlif peyvəndlər pankreas və prostat xərçəngi üçün sınaqdan keçirilsə də, effektiv olmadığına görə davam etdirilməyib. Telomeraza əsaslı peyvəndlər və müxtəlif peptid peyvəndləri də oxşar şəkildə uğur qazanmayıb. Kuba mənşəli CimaVax peyvəndi bəzi ölkələrdə istifadə olunsa da, effektivliyinin yetərli sübutu olmadığı üçün beynəlxalq səviyyədə təsdiq almayıb.

Son illərdə isə yeni nəsil peyvəndlər üzərində ciddi araşdırmalar aparılır. Xüsusilə mRNA texnologiyasına əsaslanan fərdiləşdirilmiş xərçəng peyvəndləri böyük ümid verir. Bu yanaşmada hər bir xəstənin şişinə məxsus mutasiyalar təhlil edilir və immun sistemini həmin mutasiyalara qarşı yönəltmək üçün xüsusi peyvənd hazırlanır. Onkolitik viruslar və neoantigen peyvəndləri də hazırda aktiv tədqiqat mərhələsindədir və ilkin nəticələr gələcək üçün nikbin görünür.




Ümumilikdə, bu günə qədər ən uğurlu xərçəng peyvəndləri yalnız virusların yaratdığı xərçənglərin qarşısını alan peyvəndlər olub. Xərçəngi müalicə edən peyvəndlər sahəsində isə böyük ümidlər olsa da, hələ geniş miqyasda uğur əldə edilməyib. Buna baxmayaraq, yeni texnologiyalar bu sahənin yaxın gələcəkdə dəyişə biləcəyini göstərir.

Onkoloq, fəlsəfə üzrə fəlsəfə doktoru Fərid Müseyibov mövzu ilə bağlı "Yeni Müsavat"a fikrini bölüşüb: "Yalnız Rusiyada deyil, istər Avropa ölkələri, istər Amerika Birləşmiş Ştatları, istərsə də digər ölkələr olsun - hamısı bu xəstəliklə bağlı geniş araşdırmalar aparır, müxtəlif çalışmalar həyata keçirirlər ki, xəstəliyin qarşısını almaq və mümkün müalicə metodlarını işləyib hazırlamaq mümkün olsun. Amma hələlik tam effektiv, xəstəliyin tam sağalmasına səbəb olacaq dərman preparatı yaradılmayıb. Bunun əsas səbəbi isə xəstəliyin yaranma mexanizminin dəqiq bilinməməsidir. Çünki burada çoxsaylı faktorlar rol oynaya bilər: qidalanma, tütün məmulatlarından istifadə, alkoqollu içkilərin qəbulu, müxtəlif virus xəstəlikləri, travmalar, hormonal balansın pozulması və digər amillər onkoloji xəstəliklərin yaranmasına səbəb ola bilən risk faktorları hesab olunur.

İlk öncə onu qeyd etmək lazımdır ki, əgər xəstə birinci-ikinci mərhələdə müraciət edərsə, istər Rusiyada olsun, istər digər ölkələrdə, istərsə də bizim ölkəmizdə tam yüzdə yüz sağalma şansı vardır və xəstələrimiz də sağalırlar. Peyvənd məsələsinə gəldikdə isə, ümumiyyətlə, peyvəndlərin bəzi xəstəliklərin qarşısının alınmasında müsbət təsiri mövcuddur. Məsələn, qaraciyər xərçənginin yaranmasına səbəb olan Hepatit B virusu ön sıradadır. Təbii ki, bu virusa qarşı peyvənd mövcud olduqda, xəstəliyin qarşısının alınmasına çox müsbət təsir göstərir. Bu peyvənd bizim ölkəmizdə də tətbiq olunur".

Həkim digər digər məqama da toxunub: "Uşaqlıq boynu xərçənginin yaranmasına səbəb olan HPV virusudur. Bu virusa qarşı peyvənd də ölkəmizdə aparılır və Milli Onkoloji Mərkəzində yüksək keyfiyyətlə tətbiq edilir. Təbii, dediyim kimi, bu cür elmi araşdırmaların aparılması çox müsbət haldır. Amma tam olaraq klinik mərhələyə keçməsi, yəni xəstəliyin bütün növləri üçün peyvəndlə effektiv müalicə üsullarının tapılması hələlik sual altındadır. Çünki bunun üçün çox sayda tədqiqatlar aparılmalıdır. İlk olaraq eksperimental çalışmalar heyvanlar üzərində aparılır, daha sonra insanlar üzərində tətbiq olunur. Ümid edək, yaxın gələcəkdə digər xəstəliklərdə olduğu kimi, onkoloji xəstəliklərin də yüzdə yüz müalicəsinə nail olmaq mümkün olar".

❑ **Afaq MİRAYIQ,**
**"Yeni Müsavat"**

# Bakı küçələri it-pişiklə doludur - çağırış

**Bakı küçələrində, həmçinin bölgələrdə də sahibsiz itlərin insanlara, uşaqlara hücum etməsi, hətta quduzluqdan ölüm halları da qeydə alınıb. Küçələrdə ac, yorğun və çox zaman məhz bu səbəbdən aqressivləşərək insanlara hücum çəkən heyvanlar olmamalıdır. Onların daldalanacağı, qidalanacağı sığınacaqlar olmalıdır və kütləvi populyasiyanın qarşısı alınmalıdır.**



Nəqliyyat sahəsi üzrə ekspert Rauf Ağamirzəyev Sherg.az-a deyib ki, bir çox ölkələrdə böyük şəhər bələdiyyələri bu prosesə nəzarət və icra edir, quduzluğa qarşı effektiv tədbirlər görürlər: "Dünyada qəbul olunmuş qaydadır ki, it və ya pişik, fərq etməz, evdə hər hansı heyvan saxlayırsınızsa, bunun məsuliyyətini də daşımalısınız. Hər hansı heyvanı mənimsəyib, bir müddət saxladıqdan sonra küçəyə atmaq olmaz. Bir sıra ölkələrdə, o cümlədən bizim ölkədə də, Bakıda heyvan sığınacaqları var. Amma görürük ki, vətəndaşlarımız sahibləndikləri heyvanları məsuliyyətsizcə küçəyə buraxır. Bu da insanlara təhlükə yaradır. Küçə heyvanlarının peyvəndlənməsi, sterilizasiyası vacibdir. Bunu əlaqədar təşkilatlar həyata keçirməlidir".

R.Ağamirzəyev qeyd edib ki, insanların həyat tərzi dəyişib. Azərbaycanda son 10 ildə ev heyvanları saxlamaq ənənəsi daha geniş yayılıb. İnsanlar ev heyvanları saxlamağa başlayıblar: "Bu, müsbətdir, amma tələblər, qaydalar da var və evdə heyvan saxlayanlar bu qaydalara əməl etməlidirlər. Cəmiyyətin maariflənməsinə böyük ehtiyac var. Heyvanların daşınmasına icazə verilir, lakin burada da əməl edilməli qaydalar var. Hansı növlər hansı şərtlərlə daşına bilər, hansı analizlər verilməlidir və sair. Heyvanların ölkədən çıxarılmasının xüsusi prosedur qaydası var. Heyvan üçün pasportu istənilən baytarlıq klinikası peyvənd vurandan sonra verir. Sertifikat üçün yaxın qonşu ölkələrin ciddi bir tələbi yoxdur. Getməmişdən 7 gün öncə 1 saylı Asan Xidmətdə 20 Azn ödənir, Qida Təhlükəsizlik Agentliyinin Baytarlıqla əlaqəli şöbəsi 3 gün etibarlılıq müddəti olan sertifikat verir. AB və ABŞ xüsusi qan analizi quduzluğa qarşı tələb edir ki, onun da nümunəsini Şotlandiyaya göndərirlər. Bunun qiyməti 280İ-dur. Bəzən görürük ictimai nəqliyyatda heyvanın ayaq izi şəklinin üzərinə qadağan işarəsi qoyulur. Bu, düzgün deyil. Heyvanları daşımaq olar, amma mütləq xüsusi çantalarda. Böyük həcmlidirsə, ağzında mütləq ağızlıq olmalıdır. Xarici ölkələrə səfərə çıxan şəxs əgər ev heyvanını da özüylə aparırsa, mütləq peyvənd olunmasına dair sənəd tələb olunur. Şərtlərə əməl edildikdə istər şəhərdaxili nəqliyyatda, istərsə də qatar, təyyarə, gəmi, avtobusda ev heyvanları daşına bilər.

R.Ağamirzəyev bildirib ki, insanlar heyvanlara mərhəmətlə yanaşmalıdır: "Bizdə bəzən islam dinini əsas gətirərək itlərə, pişiklərə qulluq etməyi münasib saymırlar. Türkiyə də müsəlman ölkəsidir. İstanbulda, digər şəhərlərdə səkilərdə itlər, pişiklər üçün yem, su qabı qoyulur, qidalandırılır heyvanlar. Tbilisidə də həmçinin, küçə heyvanlarına sevgi, mərhəmətlə yanaşırlar. Qulaqlarında birka olan heyvanlar sərbəst dolaşır və heç bir təhlükə törətmirlər. Heyvan da canlıdır, onu da qorumaq lazımdır. Bu mövzuda hər bir kəs maariflənməlidir".

YENİ MÜSAVAT
N 227 (8837) 13 dekabr 2025

**Azərbaycan işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq prosesləri, mina təhlükəsi və mədəni irsin bərpası ilə bağlı YUNESCO ilə danışıqları intensivləşdirib. Bu barədə ölkəmizin qurumdakı daimi nümayəndəsi, səfir Elman Abdullayev "Mədəniyyət və Hüquq: Müasir Çətinliklər" forumunda çıxışı zamanı məlumat verib. Səfir bildirib ki, Azərbaycan YUNESCO ilə əməkdaşlıqda maraqlıdır, lakin bu əməkdaşlığın real, obyektiv və siyasətdən kənar olmasına ümid edir. Onun sözlərinə görə, hazırda aparılan danışıqlar xüsusilə mina təhlükəsi, mədəni irsin sənədləşdirilməsi və beynəlxalq missiyanın bölgəyə göndərilməsi məsələlərinə fokuslanır.**

# YUNESCO "daşı ətəyindən" tökür? - Qarabağa missiya

## Ermənipərəst mövqeyi ilə tanınan qurumun gec də olsa həqiqətləri tanıma zamanı - iki rəy




Abdullayev xatırladıb ki, YUNESCO Qarabağ və Şərqi Zəngəzur otuz ilə yaxın işğal altında olduğu dövrdə bir dəfə də olsun faktaraşdırıcı missiya göndərməmişdi. Azərbaycan işğal zamanı məhv edilən mədəni irs, dağıdılan məscidlər, talan olunan muzeylər, saxtalaşdırılan tarixi adlarla bağlı quruma rəsmi müraciətlər etsə də, təşkilat missiyanın göndərilməsinin Ermənistan tərəfindən əngəllendiyini bəyan etməklə kifayətlənmişdi.

Bu fakt YUNESCO-nun obyektivliyinə dair sualları illərdir açıq saxlayır. Təsadüfi deyil ki, təşkilatın hazırkı rəhbərliyinin Fransadan olması və Parisin illərdir Ermənistanın maraqlarını müdafiə edən siyasəti Azərbaycan cəmiyyətində ciddi narazılıq doğurur.

Rəsmi Bakı indi həmin təşkilatla yeni mərhələyə keçmək istəyir: missiyanın bölgəyə gəlişi, mədəni irsin real vəziyyətinin sənədləşdirilməsi, erməni vandallığının beynəlxalq səviyyədə rəsmiləşdirilməsi istiqamətində təşəbbüs göstərir. Lakin sual açıq qalır: Ermənipərəst mövqeyi ilə tanınan qurum nəhayət bu həqiqətləri tanıyacaqmı?

Müzakirələr fonunda Azərbaycanda iki fərqli gözlənti mövcuddur. Bir tərəf hesab edir ki, Bakı YUNESCO ilə dialoqu davam etdirməli və qurumu fakt qarşısında qoyaraq, Qarabağda törədilən dağıntıların beynəlxalq səviyyədə tanıdılmasına çalışmalıdır. Digərləri isə düşünür ki, əgər təşkilat siyasi yanaşmasından əl çəkmirsə, Azərbaycanın YUNESCO-dan çıxması da gündəmə gələ bilər - çünki Azərbaycanın milli maraqları hər şeydən üstündür.

Hazırda prosesin hansı istiqamətə gedəcəyi danışıqların nəticələrindən asılı olacaq. YUNESCO-ya 30 illik sükutun məsuliyyətini qəbul edib Ermənistanın törətdiyi mədəni soyqırımı sənədləşdirəcək, ya da özünü növbəti dəfə siyasi təsirlərin əsiri kimi göstərəcək. Azərbaycanın isə artıq heç bir halda ədalətsiz yanaşmanı qəbul etmək niyyəti yoxdur.

Mövzu ilə bağlı millət vəkili Tənzilə Rüstəmxanlı "Yeni Müsavat"a danışıb. O bildirib ki, 30 illik işğal dövründə Azərbaycan ərazisində tarixi, dini, mənəvi abidələr Ermənistan tərəfindən tamamilə məhv edilib. Eyni zamanda, bu ərazilərdə Azərbaycan xalqına məxsus tarixi-dini dəyərlərin erməniləşdirilməsi həyata keçirilib: "Min illər boyu xalqımızın qoruyub saxladığı irs erməni barbarlığına məruz qalıb. Məqsəd bu ərazidə Azərbaycan xalqına məxsus olan izlərin silinməsi olub. Ərazilər erməni silahlılarından azad edildikdən sonra bu bölgədə böyük bir barbarlığın və vandalizmin baş verdiyi üzə çıxıb. Amma çox təəssüflər olsun ki, YUNESCO Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə işğal dövründə dəymiş ziyanı qiymətləndirmək üçün hələ də missiya göndərməyib.

Bu, əslində ümumbəşəri dəyərlərə olan yanaşmanın açıq təzahürü hesab edilir. Azərbaycanın tarixi abidələrinin dağıdılması barədə Bakı daimi olaraq YUNESCO-nu və digər beynəlxalq qurumları məlumatlandırıb. Azərbaycanın tarixi abidələrinin dağıdılması barədə Bakı daimi olaraq YUNESCO-nu və digər beynəlxalq qurumları məlumatlandırıb.

Azərbaycan münaqişədən sonrakı reabilitasiya prosesində YUNESCO ilə əməkdaşlıq etmək istəyindədir və işğaldan azad edilmiş ərazilərimizə texniki missiyanın göndərilməsi məqsədilə Azərbaycan və YUNESCO-nun fəal şəkildə dialoqu aparılır. İnanıram ki, işğaldan azad olunmuş ərazilərdə də missiyanın səmərəliliyini və müstəqilliyini təmin edəcək bir sıra mürəkkəb texniki, hüquqi və siyasi məsələlərin həllinə nail olunacaq".

Millət vəkili Fazil Mustafa bildirib ki, bu məsələdə Azərbaycan cəhdlər etməlidir: "Bizim itirəcəyimiz bir şey yoxdur. Torpağı azad etmişdik. YUNESCO-nun əslində burada olmağına böyük ehtiyac və zərurət yoxdur, amma nə edək, hər halda təbliğat baxımından lazımdır. Gəlməməsi də bizim əlimizdə əsasdır. Ona görə də biz davamlı müraciətləri həyata keçirməliyik. Erməni təbliğatı bu günə qədər də davam edir. Faktiki olaraq gəlib görsələr ki, bu günə qədər nə qədər abidəni Azərbaycan qoruyub saxlayır, ermənilərin yalanları ifşa olunar".

Qeyd edək ki, İşğaldan azad olunan ərazilərimizdə 2645 tarix və mədəniyyət abidələri mövcud olub. Bunların böyük əksəriyyəti ermənilər tərəfindən dağıdılıb və saxtalaşdırılıb. 50-dən çox forması dəyişdirilən tarix və mədəniyyət abidələrimiz var ki, ermənilər həmin abidələrin üzərinə zəng qüllələri əlavə edib kilsə və monastır kimi təbliğ edirlər. Halbuki həmin abidələr xristianlıq mövcud olmayanda var idilər. Bunlara misal olaraq Tuğ kəndində yerləşən alban məbədini, Laçın rayonunun Mirik, Hüsülü, Kosalar kəndindəki abidələri, bundan başqa Kəlbəcər rayonunda yerləşən Gəncəsər monastırını göstərmək olar.

❑ **Şahanə RƏHİMLİ, "Yeni Müsavat"**

# Avropa İttifaqı Gürcüstanın daxili işlərinə qarışır



**"Avropa İttifaqı bəyan edir ki, ABŞ Avropanın daxili işlərinə qarışmamalıdır, amma Brüssel özü Gürcüstana münasibətdə suverenlik prinsipini pozub".**

Teleqraf xəbər verir ki, bunu Gürcüstan Baş naziri İrakli Kobaxidze jurnalistlərə bildirib.

"Bu gün ABŞ administrasiyası Avropada baş verən prosesləri elə bizim keçən il etdiyimiz kimi qiymətləndirir. Bu isə Avropa bürokratiyasının xoşuna gəlmir. Suverenlik prinsipini indi xatırlayıblar, yəni başqalarının daxili işlərinə kənardan müdaxilə edilməməlidir. Halbuki Avropa bürokratiyası Gürcüstana münasibətdə suverenlik prinsipini gündəlik olaraq pozurdu. Burada ikili standartlar açıq-aşkar görünür. ABŞ administrasiyası Avropa İttifaqında gedən prosesləri dəqiq qiymətləndirir, bizim də bu illər ərzində qiymətimiz tam olaraq eyni idi", - o qeyd edib.

# Pezeşkianla Putin arasında dəhliz söhbəti: Sözləri üst-üstə düşmədi



**İran Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi çərçivəsində 160 kilometrlik Rəşt-Astara dəmir yolu xəttinin tikintisi üçün 100 kilometrdən çox yol qət edib. Teleqraf xəbər verir ki, bu barədə İran Prezidenti Məsud Pezeşkian Aşqabadda Rusiya Prezidenti Vladimir Putinlə görüşü zamanı deyib.**

"Astara-Rəşt marşrutu ilə bağlı artıq 100 kilometri qət etmişik, bəlkə də, ilin sonuna kimi 110 kilometrə kimi tamamladıq", - o bildirib. Vladimir Putin isə dəqiqləşdirib:

"93 kilometr".

İran Prezidenti cavabında qeyd edib:

"100 kilometrdən daha çox - 106. Bu məsələni hər həftə izləyirik".

Məsud Pezeşkian əlavə edib ki, prosesi 2026-cı ilin mart ayına qədər başa çatdırmağı planlaşdırırlar.

Xatırladaq ki, 2023-cü ildə Rusiya və İran Şimal-Cənub nəqliyyat dəhlizinin bir hissəsi olan Rəşt-Astara dəmir yolu xəttinin birgə tikintisinə dair saziş imzalayıb. Bu layihə Azərbaycan vasitəsilə Bəsrə körfəzi limanlarına fasiləsiz nəqliyyatı təmin edəcək. Layihənin ümumi dəyəri 1,6 milyard avrodur. Sazişə əsasən, Moskva və Tehran layihələndirmə, tikinti və xidmətlərin göstərilməsini birgə maliyyələşdirəcək. Dəmir yolunun tikintisinin 2026-cı ildə başlaması gözlənilir.

# Türkiyə ordusundan əməliyyat mesajı

**SDQ terror təşkilatının 10 mart razılaşmasına baxmayaraq Suriya ordusuna inteqrasiya etmək əvəzinə fəaliyyətlərini dayandırmır, ölkədə yaradılmağa çalışılan sabitlik və təhlükəsizlik mühitinə zərər verməyə davam edir.**

Türkiyə Müdafiə Nazirliyinin sözçüsü Zəki Aktürk bu barədə bildirib.

"Bəzi ölkələrin davranış və bəyanatları nəticəsində SDQ terror təşkilatının inteqrasiya olmama və silahları təhvil verməmə mövqeyinə təşviq edildiyini görürük. SDQ-nin 10 mart razılaşması çərçivəsində Suriya ordusuna birlik olaraq deyil, fərdi şəkildə inteqrasiya olmasını gözlədiyimizi əvvəllər də bəyan etmişik. SDQ-nin zaman qazanmaq cəhdləri də boşuna olacaq. İnteqrasiya prosesindən başqa heç bir yol nəticə verməyəcək", - o vurğulayıb.

Zəki Aktürk Türkiyə Silahlı Qüvvələrinin Suriyadakı fəallığı ilə bağlı yayılan məlumatları da şərh edib:

"Keçən həftə Türkiyə Silahlı Qüvvələrinin Suriya ərazisindəki rutin fəaliyyətlərinə aid görüntülərlə əlaqədar əməliyyat hazırlığı aparıldığı iddiaları gündəmə gəlib. Görüntülərdə əks olunan fəaliyyətlərimiz rutin yerdəyişmə ilə bağlıdır.

Burada əsas diqqət yetirilməli olan Türkiyə Silahlı Qüvvələrinin hərəkətlərindən çox SDQ terror təşkilatının vəziyyəti və Suriya ordusunun fəaliyyətləridir".

Yeni MÜSAVAT
N 227 (8837) 13 dekabr 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi**

# Ərzaq qiymətləri niyə sürətlə artır - Səbəb

## Ən yüksək inflyasiya qida məhsullarında qeydə alınıb

**Bu ilin 11 ayında Azərbaycanda illik inflyasiya 5,5 faiz təşkil edib. Dövlət Statistika Komitəsinin hesablamalarına görə, bu dövrdə qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə bahalaşma 7,1 faiz, qeyri-qida məhsulları üzrə 2,5 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 5,7 faiz təşkil edib.**



Komitənin məlumatından aydın olur ki, ən yüksək inflyasiya qida məhsullarında qeydə alınıb - 7,3 faiz. Ay ərzində əvvəlki aya nisbətən ayrı-ayrı qida məhsullarından daha çox bahalaşma qarabaşaq yarmasının, mal ətindən konservlərin, balıq və balıq məhsullarının, südün, yumurtanın, armudun, üzümün, qozun, fındığın, şabalıdın, xiyarın, pomidorun, şirin bibərin, badımcanın, soğanın, kartofun, qara və yaşıl çayın, alkoqollu içkilərin, ucuzlaşma isə makaronun, limonun, portağalın, naringinin, almanın, heyvanın, narın, xurmanın, kivinin, ağ kələmin, göyərtinin, balqabağın, lobyanın, süfrə çuğundurunun, yerkökünün qiymətlərində müşahidə olunub.

Qeyd edək ki, ərzaq məhsullarının bahalaşmasının əsasında həm idxal, həm də kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indekslərinin artımı əsas paya malikdir.

Azərbaycan Mərkəzi Bankın İdarə Heyətinin sədri Taleh Kazımovun dediyinə görə, Azərbaycanda inflyasiyaya ən çox təsir edən daxili amil kənd təsərrüfatı məhsullarının istehsalçı qiymətləridir. Yanvar-sentyabr aylarında kənd təsərrüfatı məhsullarının bahalaşması ümumi inflyasiyaya 4,28 faiz bəndi artırıcı təsir edib:

“Doqquz ayda ölkədə kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksi 9,3 faiz artıb. Bu, inflyasiyaya 4,28 faiz bəndi artırıcı təsir göstərib. Biz bu artımın səbəblərini təhlil etmək üçün Dövlət Statistika Komitəsinin bazasından istifadə etmişik. Müşahidələr göstərib ki, 9 ayda birillik bitkiçilikdə bu göstərici 4,6 faiz, çoxillik bitkiçilikdə 22,7 faiz təşkil edib. Heyvandarlıq məhsullarının istehsalçı qiymət indeksi doqquz ayda 9,6 faiz artıb. Bu artımda idxal olunan meyvə və əkin toxumlarının qiymətinin 61 faiz, heyvandarlıq yemi üçün istifadə olunan məhsulların idxal qiymətinin 27.1 faiz, mineral və kimyəvi azot gübrələrinin idxal qiymətinin isə 11,8 faiz artması əsas rol oynayıb”.

AMB-nin oktyabr proqnozuna görə, 2025-ci ilin sonuna kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksi 7,9 faiz artacaq. İyulda gözlənti 6,9 faiz idi. Bu artım ölkə üzrə ümumi inflyasiyaya 0,47 faiz bəndi artırıcı təsir göstərəcək".

Məlumdur ki, istehsalçı qiymət artımı son məhsulda 2 aydan sonra hiss olunur. Rəsmi statistikaya əsasən kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksi bu ilin noyabr ayında 2024-cü ilin eyni dövrü ilə müqayisədə 5,1 faiz, yanvar-noyabrda isə 8,5 faiz artıb. Bu isə yaxınmüddətli dövrdə ərzaq qiymətlərində artımın davam edəcəyini göstərir.

Bundan əlavə, ölkəyə idxal olunan ərzaq mallarının dəyərində də artım müşahidə olunur. Dövlət Gömrük Komitəsinin məlumatına əsasən Azərbaycan bu ilin yanvar-oktyabr aylarında 2,1 milyard dollar dəyərində yeyinti məhsulları idxal edib. Bu dövrdə ölkənin yeyinti məhsulları idxalına çəkdiyi xərc ötən ilin eyni ayları ilə müqayisədə 7,2 faiz artıb.

DSK-nın məlumatına görə, 2025-ci ilin oktyabr ayında idxal olunan məhsulların qiymət indeksi əvvəlki ayla müqayisədə 5,3 faiz, əvvəlki ilin müvafiq ayı ilə müqayisədə 30,0 faiz, 2025-ci ilin yanvar-oktyabr aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən 25,4 faiz artıb. Bu isə yenə də ərzaq bazarında qiymət artımının davamlılığından xəbər verir.

Konkret məhsullara gəlincə, gömrük statistikasına əsasən 2025-ci ilin yanvar-oktyabr aylarında Azərbaycan 217 milyon 691 min ABŞ dolları dəyərində 1 milyon 9 614.31 ton buğda idxal edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə həcm baxımından 6.4 faiz, dəyər baxımından isə 6 faiz artım deməkdir.

Bu ilin ilk 10 ayında Azərbaycana 148,1 milyon dollar dəyərində 21,5 min ton kərə yağı və süddən hazırlanmış digər yağlar idxal olunub. Bu məhsulun idxalı ötən ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsində 9 milyon dollar və ya 6,5 faiz, miqdar ifadəsində isə 3 min ton və ya 12,4 faiz azalıb. Lakin idxalın azalmasına baxmayaraq, idxal qiymətlərində 21 faizlik artım var.

2025-ci ilin 10 ayında Azərbaycana 244,7 milyon ABŞ dolları dəyərində 299 179 ton tərəvəz və meyvə idxal olunub. Meyvə-tərəvəzin idxalı zamanı 1 kiloqram üçün qiymət 0,76 dollardan 0,82 dollara yüksəlib. Nəticədə ötən ilin eyni dövrü ilə müqayisədə miqdar baxımından 3,9 faiz, dəyər baxımından isə 12,1 faiz artım müşahidə olunub.

Ölkə daxilində ərzaq məhsullarının istehsal göstəricilərinə əsasən yanvar-noyabrda bir sıra qida məhsullarının istehsalında artım müşahidə olunsa da, bəzi sahələrdə azalma qeydə alınıb. Hesabat dövründə Azərbaycanda 29 082,2 ton kolbasa məmulatı istehsal olunub ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,1 faiz artım deməkdir. Meyvə şirələrinin istehsalında da artım qeydə alınıb 2,4 faiz.

Marqarin istehsalı 46 537,8 ton təşkil edib və bu sahədə 3,1 faiz artım müşahidə olunub. Qaymaq və xama istehsalı 9 416,1 ton olub və ötən illə müqayisədə 4 faiz artıb.

Bir sıra məhsullar üzrə istehsal həcmlərində isə azalma var. Belə ki, kərə yağı istehsalı 24 358,8 ton təşkil edib ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 9,4 faiz azalma deməkdir. Duru bitki yağları üzrə istehsal həcmi 37 728,4 ton olub və göstərici 2,6 faiz azalıb.

Pendir və kəsmik istehsalı 48 616,9 ton olmaqla 3,6 faiz azalma göstərib. Meyvə-tərəvəz konservlərinin istehsalı 160 581,9 ton təşkil edib və 1,8 faiz aşağı düşüb. Çay istehsalı 10 540,1 ton olub və sahə üzrə 8,6 faiz azalma qeydə alınıb. Qida duzu istehsalı isə 74,7 min ton olmaqla ötən ilin eyni dövrünə nisbətən 7,7 faiz azalmanın göstəricisidir.

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Dünya SAKİT**

# Maaş ayda iki dəfə veriləcək - Yeni qanun




**Məlum olduğu kimi, Əmək Məcəlləsinə təklif edilən dəyişikliyə əsasən, əməkhaqqının verilməsi müddətləri ilə bağlı qaydalarda dəyişiklik ediləcək. Belə ki, dəyişikliyə əsasən, əməkhaqqı işçilərə ayda bir dəfədən az olmayaraq verilməlidir. Tərəflərin qarşılıqlı razılığı ilə aylıq əməkhaqqı iki hissəyə bölünərək (avans olaraq və qalan hissəsi məbləğində) on altı gündən çox olmayan vaxt fasiləsi ilə ayda iki dəfə verilə biləcək.**

Məsələ ilə bağlı Milli Məclisin deputatı Vüqar Bayramov İqtisadiyyat.az-a açıqlamasında deyib ki, indiyə qədər əməkhaqqının hesablanması qaydası, o cümlədən vergi hesabatlılığı ayda bir dəfə həyata keçirilirdi.

Onun sözlərinə görə, Əmək Məcəlləsinə təklif edilən dəyişiklikdə isə bunun iki dəfə həyata keçirilməsi təsbit olunur.

Deputat bu yeni qaydanın ailə büdcəsinin planlaşdırılması baxımından da çox əhəmiyyətli olduğunu vurğulayıb.

O həmçinin söyləyib ki, bu həm də beynəlxalq təcrübədə tətbiq edilən metodlardan biridir və bu istiqamətdə proqram təminatının da təkmilləşdiriləcəyi gözlənilir:

“Çünki vergilərin hesablanması və təqdim olunması üçün proqram təminatının təkmilləşdirilməsinə ehtiyac var. Təbii ki, bu da ailənin öz xərclərinin planlaşdırması və onların sosial aspekti üçün önəmlidir. Nəticədə əməkhaqqının daha səmərəli istifadə olunmasına və ailə büdcəsində xərclərin planlaşdırılmasına gətirib çıxara bilər”.

V.Bayramov onu xatırladıb ki, işçilər üçün bu metod həm beynəlxalq təcrübədə tətbiq olunur, həm də Beynəlxalq Əmək Təşkilatı belə bir mexanizmi tövsiyə edir: “Digər tərəfdən bu, işçilər üçün, xüsusi olaraq büdcənin planlaşdırılması ilə yanaşı, həmçinin beynəlxalq təcrübəyə uyğun dəyişiklikdir”.



# Bu şəxslərdən əmlak qeydiyyatı üçün rüsum alınmayacaq

**Azərbaycanın ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi, 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar, həmçinin hərbi xidmət vəzifələrini yerinə yetirən və əlilliyi müəyyən edilmiş şəxslər üçün daşınmaz əmlakın dövlət qeydiyyatı ilə bağlı yeni təşəbbüs tətbiq edilir.**

Bu məsələ Milli Məclisin növbəti plenar iclasının gündəliyinə daxil edilən qanun layihəsində öz əksini tapıb.

Təklif olunan qanun dəyişikliklərinə əsasən, əlilliyi müəyyən edilmiş və şəhid ailəsi statusu almış şəxslərdən, daşınmaz əmlakın dövlət qeydiyyatına alınması və qeydiyyatla bağlı sənədlərin verilməsi üçün dövlət rüsumu alınmayacaq.

Bu dəyişikliklər, Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi, müstəqilliyinin qorunması və konstitusiya quruluşunun bərpası kimi mühüm məsələlərdə iştirak edən şəxslərə, həmçinin 1990-cı ilin 20 Yanvar hadisələri ilə bağlı hüquqi yardım göstərən və Çernobıl AES-də hərbi xidmət etmiş insanlara, daşınmaz əmlakla bağlı dövlət reyestrindən çıxarış alınmasında maliyyə yükünü azaldır.

Bu qanun dəyişiklikləri “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanunu ilə əlaqədar hazırlanmışdır və artıq təklif olunan redaksiyada həmin şəxslərin hüquqlarına xüsusi diqqət yetirilir.



## Ərdoğanla Putin müharibəni müzakirə edib

**Rusiya və Türkiyə prezidentlərinin Aşqabadda keçirilən görüşü 40 dəqiqə davam edib.**

APA-nın Moskva bürosu xəbər verir ki, Rəcəb Tayyib Ərdoğan və Vladimir Putin görüşü mətbuata qapalı keçirilib.

Görüşdə Rusiya-Ukrayna müharibəsi müzakirə edilib.

Liderlər görüşün protokol hissəsində çıxış etməyiblər, danışıqların əvvəlində açıqlama verməyiblər.




## Rus qoşunları Donbasda olmaya bilər

**Mümkündür ki, Donbasda nə Rusiya, nə də Ukrayna qoşunları olsun, yalnız “Rosqvardiya” (Rusiya Federasiyasının Milli Qvardiyası - red.) olacaq.**

APA-nın Moskva bürosu xəbər verir ki, bunu Rusiya Prezidentinin beynəlxalq məsələlər üzrə köməkçisi Yuri Uşakov bildirib.

“Orada nə Rusiya, nə də Ukrayna qoşunlarının olmayacağı tamamilə mümkündür. Bəli, amma ”Rosqvardiya", polisimiz, asayişi qorumaq və həyatı təşkil etmək üçün lazım olan hər şey olacaq", - o deyib.

Kreml rəsmisi Rusiyanın gec-tez bütün Donbası nəzarətə götürəcəyini də qeyd edib.

Rusiya prezidentinin köməkçisi bildirib ki, sülh danışıqlarından sonra Donbasda Rusiya və ya Ukrayna qoşunları qalmaya bilər.

Kreml hesab edir ki, Rusiya Milli Qvardiyası və Rusiya polisi Donbasda asayişi qoruyacaq. O, bu açıqlamanı “Kommersant” qəzetinə verdiyi müsahibədə verib.

Uşakov vurğulayıb ki, Donbas “gec-tez” Rusiyanın tam nəzarəti altına keçəcək - “danışıqlar yolu ilə olmasa, hərbi yolla”.

Onun sözlərinə görə, “qalan hər şey bundan asılı olacaq”."Yəni atəşkəs yalnız Ukrayna qoşunlarının çıxarılmasından sonra baş verə bilər. Bundan sonra nə baş verəcək - mənim fikrimcə, bunu müzakirə edə bilərik. Ona görə də, Donbasda nə Rusiya, nə də Ukrayna qoşunlarının olmayacağı tamamilə mümkündür

Bəli, amma Rosqvardiya, bizim polisimiz, asayişi qorumaq və həyatı təşkil etmək üçün lazım olan hər şey olacaq", - o deyib.

Uşakovun sözlərinə görə, Vladimir Zelenski Ukrayna qoşunlarının Donbasdan çıxarılmasına qarşı çıxıb və bu, “amerikalıların ona qarşı irəli sürdüyü tələblərdən biri” olub.

“Hər halda, nəticə nə olursa olsun, bu ərazi Rusiya Federasiyasının ərazisidir və gec-tez administrasiyalarımızın nəzarəti altında olacaq”, - deyə o əlavə edib.

# ABŞ NATO-dan çıxsa, Alyans dağılsa...

## Ekspertlər bunun Türkiyə və Azərbaycana xeyri ilə ziyanını şərh etdi




**Respublikaçı ABŞ konqresmeni Tomas Massi ABŞ-ın Şimali Atlantika Alyansından çıxmasını nəzərdə tutan HR 6508 qanun layihəsini (“NATO qanunu”) Nümayəndələr Palatasına təqdim edib. Bu barədə siyasətçinin rəsmi saytında məlumat yayılıb. “NATO ”Soyuq müharibə"nin qalığıdır. Biz NATO-dan çıxmalı və bu pulu sosialist ölkələrini deyil, öz ölkəmizi müdafiə etmək üçün istifadə etməliyik. Bu ittifaq 30 il əvvəl dağılan Sovet İttifaqına qarşı durmaq üçün yaradılıb. Blokda iştirak Amerika vergi ödəyicilərinə trilyonlarla dollara başa gəlib və ABŞ-ın xarici münaqişələrdə iştirakı riskini yaratmağa davam edir. Varlı ölkələr öz müdafiə xərclərini ödəməkdən imtina etdikdə, Amerika dünya üçün “təhlükəsizlik yorğanı” olmamalıdır", - o bildirib.**

Yada salaq ki, Prezident Donald Tramp dəfələrlə müttəfiqlərinin müdafiə xərclərinin yetərli olmaması səbəbindən ölkəni NATO-dan çıxarmaqla hədələyib.

ABŞ NATO-dan çıxarmı? Alyansın ləğvi necə, mümkünmü? Hansı ki, Rusiyanın çoxdankı arzusudur və Ukraynaya qarşı işğalçı müharibənin əsas motivlərindən biridir. Nəhayət, Türkiyə və Azərbaycan üçün NATO-nun qalması daha önəmldir, yoxsa..

Politoloq Qabil Hüseynli “Yeni Müsavat”a deyib ki, ABŞ Konqresində “NATO-dan çıxmaq” təşəbbüslərinin yenidən gündəmə gəlməsi və HR 6508-in təqdim olunması müəyyən dairələrin siyasi jestidir: “Lakin bunu Alyansın real dağılması kimi qiymətləndirmək düzgün olmaz. ABŞ-da belə layihələr daha çox daxili siyasi ritorikanın məhsuludur və qlobal təhlükəsizlik arxitekturasına dərhal təsir göstərə biləcək qərarlar kateqoriyasına aid deyil”.

Politoloq deyib ki, ABŞ NATO-ya alternativi olmayan kollektiv təhlükəsizlik aləti kimi yanaşır:"ABŞ-ın qlobal təsir imkanlarının mühüm hissəsi məhz Alyansın üzərində qurulub. Vaşinqton bu strukturu tərk edərsə, Avropa üzərindəki strateji nəzarətini itirər. Bu, ABŞ siyasi elitasının böyük hissəsi üçün qəbuledilməzdir. Konqresdə təqdim edilən layihələr çox vaxt siyasi siqnaldır. ABŞ-da büdcə yükünün bölüşdürülməsi və NATO ölkələrinin xərclərinə dair narazılıqlar illərdir davam edir. Bu, real çıxış niyyətindən daha çox, Avropaya təzyiq vasitəsidir. Qərb içində strateji uzlaşma mövcuddur. Rusiya-Çin tandeminin gücləndiyi bir vaxtda Alyansın zəiflədilməsi Qərb üçün təhlükəli presedent yaradar. Bu səbəbdən ABŞ çıxış istiqamətinə gedərsə belə, sistem özünü adaptasiya edəcək. Yəni tam çöküş gözlənilmir".

Politoloq bildirib ki, NATO zəifləsə belə, Türkiyənin mövqeyi yalnız Alyansın taleyi ilə müəyyən olunmur: “Ankara çoxvektorlu siyasət yürüdür və Alyans onun alətlərindən yalnız biridir. NATO zəifləyərsə, Qara dəniz regionunda Rusiya balansı dəyişə bilər. NATO-nun zəifləməsi Moskvanın hərbi-siyasi təsirini artırar və Türkiyənin manevr imkanlarına təsir edə bilər. Suriya və Yaxın Şərqdə ABŞ faktoru azalarsa, Türkiyə tək qala bilər. Bu, PKK/YPG məsələsində əlavə təzyiqlər yaradar. Son 10 ilin gedişi isə göstərir ki, Ankara artıq NATO-dan kənar müdafiə imkanları yaradır. Türkiyə öz təhlükəsizlik arxitekturasını müstəqilləşdirir. Regional güc mərkəzi kimi daha sərbəst rol alır. NATO zəifləsə, Türkiyə geosiyasi boşluğu doldurmaq potensialına malikdir. Türkiyə üçün optimal ssenari NATO-da qalmaq olsa da, amma eyni zamanda öz təhlükəsizlik modelini diversifikasiya etməkdədir”.

Azərbaycana gəldikdə isə politoloq deyib ki, ölkəmiz NATO üzvü olmadığı üçün məsələni formal ittifaq konteksində yox, Türkiyə üzərindən regional təhlükəsizlik balansı çərçivəsində qiymətləndirmək lazımdır: “Qərb təsirinin azalması Cənubi Qafqazda Rusiyanın mövqeyini gücləndirə və regionda risk balansını dəyişə bilər. Bu halda Türkiyə NATO zəmanətləri olmadan daha çətin geosiyasi mühitə düşə bilər. Bu isə dolayı olaraq Azərbaycan üçün əlavə risklər yaradır. Azərbaycan-Türkiyə hərbi-siyasi koordinasiyası dərinləşməsi vaacibdir. Bakı üçün əsas təhlükəsizlik dayağı məhz Türkiyə ilə strateji müttəfiqlikdir. ABŞ-ın NATO-dan çıxması ehtimal kimi mövcuddur, lakin real siyasi qərar kimi görünmür. Regionda hərbi-siyasi balansın dəyişməsi Azərbaycan üçün risklər yaradır, buna görə Bakı çoxvektorlu siyasətini davam etdirməlidir”.

Hərbi ekspert Rövşən Məhərrəmov “Yeni Müsavat”a deyib ki, ABŞ Konqresində NATO-dan çıxmaq təşəbbüsü yenidən gündəmə gəlsə də, HR 6508 qanun layihəsi rəsmi təqdim olunsa da, bunun real qərar olmasına inanmır: “Lakin belə bir ssenari hipotetik olsa da, region üçün ciddi hərbi və strateji nəticələr doğura bilər. ABŞ-ın çıxışı NATO-nun Avropadakı kontingentlərinə, strateji hava və dəniz bazalarına ciddi təsir göstərə bilər. Alyans zəifləsə, Rusiyanın Qara dəniz və Şərqi Avropada manevr imkanları artır. Bu, Avropa üçün ciddi hərbi risk deməkdir”.

Hərbi ekspert bildirib ki, Alyans zəifləsə, Ankara regional balansı qorumaqda çətinlik çəkə bilər: “ABŞ dəstəyinin azalması PKK/YPG ilə mübarizə və Suriyada əməliyyatlara təsir edə bilər. Lakin Türkiyə son onillikdə milli hərbi gücünü artırıb və strateji boşluğu doldurmaq potensialına malikdir. Türkiyə NATO xaricində də manevr edə biləcək səviyyədədir. Azərbaycana NATO üzvü olmasa da, belə bir hal olarsa, bundan təsirlənə bilər. Azərbaycan Türkiyə üzərindən regional təhlükəsizlik balansına bağlıdır. Alyans zəifləsə, Rusiya Cənubi Qafqazda təsirini artırar və Azərbaycan üçün risklər yüksələr”.

Hərbi ekspertin fikrincə, bu halda Bakı üçün Türkiyə ilə hərbi-siyasi koordinasiya daha da önəmli olacaq: “ABŞ-ın NATO-dan çıxması ehtimalı hazırda aşağıdır, amma hərbi planlaşdırma üçün vacib ssenaridir. Türkiyə öz müdafiə potensialını diversifikasiya edir, Azərbaycan isə strateji manevr imkanlarını Türkiyə ilə koordinasiya üzərindən qoruyur. Alyansın zəifləməsi regional balansı dəyişdirə, Rusiya təsirini artıraraq əlavə risklər yarada bilər”.

❑ **E.MƏMMƏDƏLİYEV, “Yeni Müsavat”**



## Fitso Ukraynadan imtina etdi

**“Əgər bu vəsaitlər hərbi məqsədlər üçün xərclənsə, heç bir halda Avropa Komissiyasının Ukraynaya dondurulmuş Rusiya aktivlərindən istifadə etməklə kompensasiya krediti vermək təklifini dəstəkləməyəcək”.**

Teleqraf xəbər verir ki, bunu Slovakiya Baş naziri Robert Fitso deyib.

Slovakiya lideri iddia edib ki, Ukraynaya on milyardlarla avronun verilməsi müharibənin davam etməsinə gətirib çıxarır.

Fitso əlavə edib ki, dondurulmuş Rusiya aktivlərinin istifadəsi Ukraynanı bərpa etmək üçün bu resurslara güvənən ABŞ-nin sülh səylərini birbaşa təhlükə altına qoya bilər.

“Slovakiya yalnız əzab və ölümü uzadan proqramların bir hissəsi olmayacaq. Avropa Şurasının qarşıdan gələn iclasında Ukraynanın hərbi xərcləri üçün maliyyələşdirmə təmin edəcək heç bir qərarı dəstəkləməyəcəyəm”, - Baş nazir vurğulayıb.



## İsrail Hizbullahın düşərgələrini vurdu

**İsrail ordusu Livanın cənubunda Hizbullahın hərbi və təlim düşərgələrinə hava zərbələri endirib.**

Axar.az xəbər verir ki, bu barədə Livan mətbuatı məlumat yayıb.

Bildirilib ki, ümumilikdə azı 10 hava hücumu həyata keçirilib. Ölən və yaralananlar barədə hər hansı məlumat verilməyib.

İsrail ordusunun sözçüsü Aviçay Adrai də açıqlamasında bildirib ki, hava hücumları nəticəsində “Radvan” komando bölməsinin bazaları, yeraltı sığınacaqları, sursat anbarlarına ziyan vurulub.

YENİ MÜSAVAT
N 227 (8837) 13 dekabr 2025

# Ölkənin pambıq yığımında rekord

## Azərbaycan fermerləri buna necə nail oldu? - mütəxəssis rəyi

**Azərbaycanda bu il rekord həcmdə pambıq toplanıb. Kənd Təsərrüfatı Nazirliyinin açıqladığı məlumata görə, ölkədə pambıq yığımı yekunlaşmaq üzrədir.**

Belə ki, dekabrın 8-dək əkin aparılmış 100 468,1 hektar sahədən kondisiya çəkidə 353 914 ton xam pambıq yığılıb: "Operativ məlumata əsasən, pambıq üzrə orta məhsuldarlıq 35,23 sentner/ha təşkil edir. Bu rəqəmlər müstəqillik dövründə qeydə alınan ən yüksək pambıq tədarükü və orta məhsuldarlıq göstəriciləridir".

Müqayisə üçün bildirək ki, ötən il 103 min hektardan çox sahədə pambıq əkilib, 307 min tondan çox məhsul götürülüb. Beləliklə, əvvəlki 3 ildə pambıq istehsalında azalmadan sonra artım qeydə alınmışdı. Belə ki, 2020-ci ildə Azərbaycanda 337 min ton, 2022-ci ildə 323 min ton, 2023-cü ildə 276,3 min ton pambıq istehsal edilmişdi.

Məlumata görə, Azərbaycanın ənənəvi pambıqçılıq rayonlarından sayılan Bərdədə bu il 8 448,8 hektar sahədə pambıq əkilib. Dekabrın 8-dək sahələrdən 30 249,4 sentner pambıq yığılıb. Rayonda pambıq üzrə orta məhsuldarlıq göstəricisi 35,8 sentner/ha təşkil edir. Bərdə rayonunda pambıq əkini aparan fermerlər 5 pambıq emalı şirkəti ilə müqavilə bağlayaraq məhsulu bu şirkətlərə təhvil verirlər. Fermerlərlə ən çox müqavilə bağlayan şirkətlər "Prime Cotton" MMC, "Azərpambıq" MMC, "P-Agro" MMC və "Elakoton" MMC şirkətləridir.

Xatırladaq ki, Azərbaycanda pambıq əkinləri torpaq mülkiyyətçisi olan fermerlərlə pambıq tədarükü və emalı şirkətləri arasında bağlanan müqavilələr əsasında aparılır. İmzalanan müqaviləyə əsasən, şirkət fermeri zəruri toxum, gübrə, pestisid və herbisidlərlə təmin edir, torpağın əkinə hazırlanması, aqrotexniki qulluğun göstərilməsi və məhsulun yığılması ilə bağlı texnika təchizatını həyata keçirir, bitkinin vegetasiya dövründə fermerə zəruri məsləhətlər vermək üçün aqronom ayırır, əkin xərclərini qarşılamaq üçün avans verir. Fermer isə bunun qarşılığında məhsulu yetişdirmək və müqavilədə müəyyən olunmuş qiymətə şirkətə təhvil vermək öhdəliyinə malikdir: ""Contract farming" formatında müqaviləli əkin fermerlərin əkin xərclərini və məhsul satışı problemini aradan qaldıran üsul kimi Azərbaycanda uzun illərdir tətbiq olunur və özünü uğurla doğruldur".





Qeyd edək ki, 2025-ci təsərrüfat ilində respublikanın 16 rayonunda pambıq əkini aparılıb. Əkinlərin təxminən 86 faizə yaxını pambıqçılıq üzrə ixtisaslaşmış 9 rayonun (Ağcabədi, Beyləqan, Bərdə, Biləsuvar, İmişli, Neftçala, Saatlı, Sabirabad, Salyan) payına düşür. Bu rayonlarda pambıq əkinlərinin ümumi ərazisi 86 min hektara yaxındır. Bu il ən çox pambıq Saatlı (12 634,1 ha), Ağcabədi (11 821,7 ha) və Sabirabad (11 086,2 ha) rayonlarında əkilib.

Bu günədək pambıq üzrə ən yüksək məhsuldarlıq Beyləqan rayonundadır. Bu rayonda orta məhsuldarlıq göstəricisi 41,07 sentner/ha təşkil edir. Dekabrın 8-dək rayon üzrə əkin aparılmış 8 898,3 ha sahədən 36 543,9 ton məhsul yığılaraq tədarük məntəqələrinə təhvil verilib.

Orta məhsuldarlıq göstəricisinə görə növbəti yerləri Neftçala (39,64 sentner/ha), Biləsuvar (39,45 sentner/ha), Tərtər (37,46 sentner/ha), Bərdə (35,80 sentner/ha) və Saatlı (35,69 sentner/ha) rayonları tutur. Bu rayonlarda pambıq üzrə orta məhsuldarlıq göstəricisi ümumrespublika göstəricisindən yüksəkdir.

Onu da qeyd edək ki, Aqrar Subsidiya Şurası növbəti təsərrüfat ili üçün pambıq istehsalına görə məhsul subsidiyasının artırılması barədə qərar qəbul edib. 2026-cı ildə fermerlərə müasir suvarma sistemləri ilə təmin olunmuş əkin sahələrində yetişdirilən pambığın hər tonuna görə 215 manat, müasir suvarma sistemləri ilə təmin olunmamış əkin sahələrində yetişdirilən pambığın hər tonuna görə isə 200 manat subsidiya ödənilməsi nəzərdə tutulur.

Gələn il pambıq üzrə məhsul əmsalı Ağcabədi, Ağdam, Beyləqan, Bərdə, Biləsuvar, Goranboy, İmişli, Kürdəmir, Neftçala, Saatlı, Sabirabad, Salyan, Tərtər, Yevlax, Zərdab rayonlarına, habelə Cəlilabad rayonunun Günəşli və Təzəkənd kəndlərinə və Ucar rayonunun Xələc kəndinə şamil ediləcək, digər rayonlarda əkiləcək pambığa görə isə məhsul subsidiyası ödənilməyəcək.

Rəsmi statistikaya əsasən, 100,9 min hektar sahədə pambıq əkilmişdi. Bu isə sahələrin 95 faizindən çoxunda dekabrın 8-dək yığımın başa çatdırılması deməkdir. Bu, son onillikdə rekord nailiyyət sayıla bilər, çünki pambıq yığımı əksər hallarda yanvarda da davam edirdi.

Pambıqçılıqda bu ilki nəticələrə necə nail olunub?

Sualı cavablandıran Sabirabad rayonundan olan fermer Əfras Əsgərovun "Yeni Müsavat"a dediyinə görə, bu il onun sahələrində bol məhsul yığılıb: "Son iki ayda yağıntının olmaması pambıqçılar üçün göydəndüşmə oldu. Yığımı vaxtında başa çatdıra bildik. Hazırda çox cüzi sahələr qalıb, onlarda da yığım başa çatmaq üzrədir.

Bildiyiniz kimi, 2016-cı ildə cənab Prezidentin rəhbərliyi ilə ölkəmizdə pambıqçılığın vəziyyətinə həsr olunmuş müşavirə keçirildi. O müşavirədə dövlət başçısı bu sahədə məhsuldarlığın artırılması üçün ciddi tədbirlərin görülməsini tapşırdı. Məhz həmin müşavirədən sonra əvvəla, pambıq əkinləri genişləndirildi, ikincisi isə bu sahədə müasir texnologiyaların tətbiqinə başlandı. Həm məhsuldar, xəstəliklərə davamlı toxum sortları gətirildi, həm də səpin və qulluq texnologiyaları yeniləndi. Eyni zamanda dövlət subsidiyalaşması tətbiq olundu, döbvlətin dəstəyi ilə texnika parkı tamamən yeniləndi. Pambıqçılıqda texnika mühüm rol oynayır: əkindən, səpindən, qulluqdan tutmuş yığıma qədər. Bu gün hətta xırda fermerlərin belə kiçik də olsa, texnika parkı yaranıb. Dövlətin texnika alışını subsidiyalaşdırması mexanizmindəki ciddi dəyişiklik bizə bu imkanı yaradıb. Şəxsən mənim hazırda heç biri texnikaya ehtiyacım yoxdur, hamısı özümdə var.

Bundan əlavə, suvarma-meliorasiya işləri gücləndirildi, effektiv mexanizm tətbiq olundu. Təsəvvür edin ki, Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Xidmət Mərkəzlərinin nümayəndələri bizimlə bərabər sahələrdə olurlar bütün günü. Hər sahədə məsləhətlərini verirlər, dəstək göstərirlər. Bütün bunların nəticəsində həm istehsal artdı, həm də məhsuldarlıq. Əvvəlcə 15-16 sentner olan məhsuldarlıq 28-29-a, daha sonra 30-31-ə yüksəldi. Biz bu dəstəyə və diqqətə görə cənab Prezidentə təşəkkür edirik. Pambıqçılıq ən əməktutumlu sahələrdən biridir, burada 400 minə yaxın insan məşğul olur. Dövlətin dəstəyin onların gəlirini artırır, rifahını yüksəldir".

Fermer bildirir ki, pambıqçılıqda çalışan fermerlərə pambıq emalı şirkətlərinin dəstəyi də mühüm əhəmiyyət kəsb edir: "Fermer toxumu pulsuz alır, bir çox işlərin yerinə yetirilməsində zavoddan dəstək görür. Pambıqçılıqda emal müəssisələri ilə əvvəlcədən müqavilə mexanizminin tətbiqi ümumilikdə çox müsbət haldır, inkişafa təminat verən prosesdir".

Ə.Əsgərovun fikrincə, gələn il dövlət subsidiyasının 1 ton üçün 5 manat artırılması nəzərdə tutulur ki, bu da yetirli sayıla bilməz: "5 manat çox kiçik məbləğdir. Dünya bazarında qiymətlərin aşağı olması zavodların alış qiymətini artırmasına imkan vermir. Bu baxımdan, dövlət subsidiyasının cüzi artımı fermerlərin artan xərclərinin az bir hissəsini kompensasiya edəcək. Əgər bizdə pambığa əsaslanan trikotaj sənayesinin inkişafına nail olunarsa, pambıqçılıqda gəlirlər daha çox artar. Deyilənə görə, Azərbaycan Sənaye Korporasiyası trikotaj sənayesinin inkişafı üçün layihə hazırlayır. Bu, reallaşarsa, pambıqçılığa böyük təkan verəcək. Bundan əlavə, zərərvericilərə qarşı mübarizədə fermerlərə dəstəyin artırılmasına ehtiyac var. Bu il şükür ki, sovka az oldu, məhsuldarlığın yüksəlməsində bunun rolu böyükdür. Eyni zamanda müasir suvarma mexanizmlərinin tətbiqi vacibdir, yerli və keyfiyyətli sortların yaradılmasına, dərman preparatlarının yerli istehsalının yoluna qoyulmasına böyük ehtiyac var".

Qeyd edək ki, bu il Azərbaycanda pambıq mahlıcı və iplik istehsalında da ciddi artım var. Dövlət Statistika Komitəsinin məlumatına görə, yanvar-noyabrda ölkədə 76 856,5 ton pambıq mahlıcı istehsal olunub ki, bu da illik ifadədə 33,8 faiz artım deməkdir. Dekabrın 1-nə anbarlarda 28308,2 ton ehtiyat olub. Bu dövrdə pambıq ipliyinin istehsalı 22,9 faiz artımla 19737,4 tona bərabər olub, 1 dekabra anbarlarda 5214,7 ton iplik qalıb.

Bu ilin yanvar-oktyabrında pambıqdan əldə olunan iplik ixracı 27 milyon 451.01 min dollar dəyərlə 12 029.40 tona bərabər olub. Bu isə ötən ilin eyni dövrü ilə müqayisədə dəyər baxımından 8,8 faiz, miqdar baxımından isə 17,8 faiz çoxdur. Ötən ilin eyni dövründə pambıq iplik ixracı 25 milyon 228.40 min dollar dəyərlə 10 208.23 tona bərabər olub.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 227 (8837) 13 dekabr 2025

# Şirniyyatsız arıqlama - Diyetoloq isə deyir ki...

**Artıq çəki, piylənmə, təəssüf ki, ümumbəşəri problem olaraq qalır. Eyni zamanda, bəzi xəstəliklər üçün (şəkərli diabet və s.) ciddi risk faktoru kimi qiymətləndirilir.**

Köklükdə irsi amil rol oynasa da, qazanılmış vərdişlərin, həyat tərzinin önəmi də mühümdür. Hansı vərdişlər və həyat tərzi? Bu qrup insanlar nələrə diqqət etməli?

Bu arada müğənni Rəvan Qarayev diqqətçəkən fikir söyləyib. O, son 2 ildir fərqli qidalandığını, uzun müddətdir ciddi pəhriz saxladığını bildirib və artıq neçə müddətdir şirniyyatdan imtina etdiyini deyib.

Sitat: "Qlütensiz çörək yeyirəm. Bir çörəyə 7 manatdan çox verirəm. Tort, digər şirniyyat növlərindən yemirəm. 2 ildir bu cür qidalanıram. 70 kiloqramam, boyum isə 1,68-dir. 45 yaşındayam. 2 il əvvəl isə yemirdim, səhər gedib axşam gəlirdim. Axşam oturub yeyirdim. Sonra gördüm ki, bu, nə həyatdır?" (Axşam.az).

Bəs arıqlamaq üçün şirniyyatdan tam imtina doğrumu? Rasional qida rejimi necə olmalıdır ki, artıq kalorilər köklüyə aparmasın?

Mövzu ilə bağlı həkim-diyetoloq Ləman Süleymanova "Yeni Müsavat"a danışıb:

"Piylənmə müasir dövrümüzün ən ciddi qlobal problemlərindən biridir. 2015-2020-ci illər və 2025-ci ilə dair aparılan araşdırmalar göstərir ki, həm dünyada, həm də Azərbaycanda piylənmədən əziyyət çəkənlərin sayı kəskin artıb. Bu artım xüsusilə uşaqlar və yeniyetmələr



arasında daha nəzərəçarpandır. Bunun əsas səbəbi isə 2020-ci ildən, pandemiya dövründən başlayaraq insanların uzun müddət ev şəraitində qalması, fiziki aktivliyin azalması və yüksək stres yükü altında yaşaması idır. Məhz həmin illərdən etibarən həm dünyada, həm də Azərbaycanda piylənmənin sürətlə artdığı müşahidə olunur".

Diyetoloq qeyd edib ki, piylənmə təkcə artıq çəki problemi deyil, həm də bir çox xəstəliklərin başlanğıc nöqtəsidir:

"İnsan orqanizmində genetik olaraq müəyyən xəstəlik kodları olur və xüsusilə 35 yaşdan sonra bu kodlar aktivləşməyə meyilli olur. Əgər insanın genetikində şəkərli diabet və digər xəstəliklər üçün ön xətt varsa, sağlam olmayan həyat tərzi onları daha tez üzə çıxara bilər. Yəni normalda 40 yaşda ortaya çıxmalı olan diabet, düzgün qidalanmayan, stresli həyat yaşayan insanda artıq 30 yaşda özünü göstərə bilər.

Sağlam qidalanma, fiziki aktivlik, açıq havada hərəkət, oksigenlə zəngin mühit və stressdən uzaq həyat tərzi genetik xəstəliklərin erkən aktivləşməsinin qarşısını alan əsas amillərdir. Əks halda, yüksək stress hormonları aktivləşir, maddələr mübadiləsi pozulur və nəticədə piylənmə qaçılmaz olur. Odur ki, sağlam həyat tərzi yalnız bədən çəkisinin qorunması deyil, həm də genetik risklərin idarə olunması deməkdir".

Ləman Süleymanova həmçinin qeyd edib ki, qidalanma vərdişlərində ən böyük problemlərdən biri səhər yeməyinin ötürülməsidir:

"İnsan gün boyu yemədikdə beyin hər 45 dəqiqədən bir bədənə siqnal göndərir və aclıq hormonları aktivləşir. Axşama qədər heç nə yeməyən şəxs axşam yüksək miqdarda qida qəbul edir, nəticədə həm həzm prosesi çətinləşir, həm də qanda şəkərin kəskin artmasına səbəb olur. Bu vərdiş 3-4 ay davam etdikdə genetik xəstəlik kodlarının aktivləşməsi üçün əlverişli zəmin yaranır. Məhz buna görə də qidalanmanın düzgün ritmi çox vacibdir".

Həkim-diyetoloq rasiondan hansı qidaların çıxarılması ilə bağlı da danışıb:

"Bəzən çörəyi tamamilə rasiondan çıxarmaq tövsiyə edilir, lakin bu, doğru yanaşma deyil. Əgər çörək ev şəraitində hazırlanırsa, təbii tərkibli olarsa və normada qəbul edilərsə, zərərli deyil. Xüsusilə səhər yeməyində az miqdarda çörəyin qəbulu faydalıdır. Günorta və axşam çörəkdən imtina etmək mümkündür, amma səhər rasionunda mütləq olmalıdır".

Nəticə olaraq, sağlam qidalanma, stresin azaldılması, fiziki aktivlik və nizamlı gündəlik rejim piylənmənin və onun yaratdığı erkən xəstəliklərin qarşısını almağın əsas yoludur. Təbii qidalar, balanslı porsiyalar və düzgün yemək vaxtları sağlam həyat tərzinin ayrılmaz hissəsi olmalıdır".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**



## "Balta ilə odun da doğramaq olar, adam da" - məktəbdə absurd sual

**3-cü sinif şagirdlərinə verilən KSQ (Kiçik Summativ Qiymətləndirmə) imtahanındakı dərs vəsaitindən yayılan sual ciddi müzakirələrə səbəb olub. Sualda "Atam həyətdə ... doğrayır" cümləsi təqdim edilib və tapşırıq olaraq nöqtələrin yerinə cavab variantları kimi "odun" və "adam" ifadələri göstərilib.**

Sosial şəbəkələrdə valideynlər tərəfindən yayılan bununla bağlı foto sərt şəkildə tənqid edilib.

Qeyd edək ki, KSQ imtahanındakı sualın uşaqların psixologiyasına mənfi təsir göstərə biləcəyi vurğulanaraq, "Adam doğramaq" variantının təqdim edilməsi gələcək nəsillər üçün potensial cinayətkarlığın aşılanması kimi qiymətləndirilib.

"Uşaqlar, məktəblilər üçün dərslik, vəsait, test tapşırıqları hazırlanarkən onların psixologiyası da nəzərə alınmalıdır".

Məsələ ilə bağlı Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən bildirilib ki, paylaşım edilmiş hissə ümumi təhsil müəssisələrində istifadədə olan 3-cü siniflər üçün dərsliklərdə mövcud deyil: "Belə bir test tapşırığı təhsili idarəetmə orqanları tərəfindən ümumi təhsil müəssisələrinə təqdim olunmayıb. Mənbəyi məlum olmayan hər hansı çap materialının dərslik və ya tədris vəsaiti kimi ictimaiyyətə təqdim edilməməsi, həmçinin əsassız və dəqiqləşdirilməmiş məlumatların paylaşılmaması xahiş olunur".

Məlum vəziyyətlə bağlı fikir bildirən təhsil eksperti Cavanşir Əliyev "Bakı-Xəbər"ə şərhində bildirdi ki, bəzi dərsliklər, uşaqlar üçün nəzərdə tutulan vəsaitlərdə suallar qeyri-insani və şagirdlər üçün təhlükəli hesab edilir: "Zaman-zaman bu kimi halların şahidi olmuşuq. Tapşırıqda "atam həyətdə ........ doğrayır" cümləsi təqdim edilib və tapşırıq olaraq nöqtələrin yerinə cavab variantları kimi "odun" və "adam" ifadələri göstərilib. Bu sualı, tapşırığı tərtib edən şəxs "adam" yazmaqla uşaqları zorakılığa, cinayətə çağırır. Düzgün cavab "odun" olsa da, orda "adam" sözünün olması uşaqların düşüncəsinə təsir edə bilər. İstənilən halda, uşaqlar, məktəblilər üçün dərslik, vəsait, test tapşırıqları hazırlanarkən onların psixologiyası da nəzərə alınmalıdır. Bu kitab bir neçə dəfə baxışdan, yoxlanışdan keçəndən sonra istifadəyə verilib. Bu o deməkdir ki, dərsliklərə nəzarət yoxdur".

## Azərbaycan futbolunda qumar - İş istintaqda

**Bu ilin yanvarında AFFA İntizam Komitəsinin qərarı ilə danışılmış oyunlara görə ömürlük futboldan uzaqlaşdırılan "Şamaxı"nın sabiq oyunçusu Adil Nağıyevin hansı matçlara mərc etdiyi müəyyənləşib.**




Teleqraf-ın əldə etdiyi məlumata görə, Adil Nağıyev bu işdə komanda yoldaşı Giorgi Kantariya ilə əlbir olub.

Adilin Kantariya ilə əlbir olduğu ilk qarşılaşma ötən il Premyer Liqanın 15-ci turunda Şamaxıda keçirilən "Şamaxı" - "Kəpəz" matçıdır.

Belə ki, hər iki futbolçu "Topaz" və digər mərc saytlarında "Şamaxı"nın məğlubiyyətinə pul qoyuluşu ediblər. Nəticədə "Şamaxı" sözügedən matçda 0:1 hesabı ilə məğlub olub.

Bundan başqa, tərəflər ötən il 4 dekabr tarixində Azərbaycan kubokunun 1/8 mərhələsi çərçivəsində Zirə Olimpiya Kompleksində keçirilən "Zirə" - "Şamaxı" matçında manipulyasiya ediblər.

Adil Nağıyev "Şamaxı"nın məğlubiyyətinə yatırım edərək əldə edilən qazancdan Kantariyaya 5 min dollar vəd edib. Qəsdən səhv ötürmə etməklə, bilərəkdən səhv mövqe seçməklə, rəqibin təhlükəli hücumlar etməsinə şərait yaratmaqla və digər bu kimi əməllərə yol verən tərəflər komandasının 1:3 hesablı məğlubiyyətinə şərait yaradıblar.

Adil Nağıyev Kantariadan əlavə komandanın yarımmüdafiəçisi Vasiliye Bakiçla Vasiliye Redenoviçi də "iş başında" görmək istəyib. Lakin legioner futbolçular bu təkliflə razılaşmayıb. Maraqlıdır ki, Adillə Kantariyanı ifşa edən də Redenoviç olub. O, rəhbərliyə Adillə yazışmasını təqdim edib.

Adil Nağıyev ilkin istintaqa ifadəsində bildirib ki, Azərbaycan ərazisindən burada keçirilən çempionat oyunlarına yüksək məbləğlərdə pul yatırmağın mümkün olmadığını öyrənib. Buna görə də 2024-cü ilin noyabr ayının ortalarında əvvəllər futbolçu olmuş və hazırda Türkiyədə yaşayan Elgün Nəbiyevlə vatsapla əlaqə yaradıb.

Elgünə üç oyuna 40.000-50.000 manat intervalında mərc etmək istədiyini bildirən Adil Nağıyev, bunun Türkiyə ərazisindən mümkün olub-olmadığını soruşub. Elgün də ona Türkiyədən də Azərbaycan oyunlarına yüksək məbləğdə pul vəsaiti mərc etmək olmadığını, lakin Rusiyada yaşayan Orxan adlı tanışının bu işdə ona köməklik edə biləcəyini bildirib.

Orxanla danışıq zamanı "Zirə" - "Şamaxı" arasında baş tutacaq oyunda müdafiəçisi olduğu "Şamaxı"nın bilə-bilə passiv hərəkətlər və "səhvlər" edərək uduzdurmaq istədiyini, 50.000 manat məbləğdə pul vəsaitini mərc etməklə yüksək qazanc əldə etmək istədiyini bildirib.

Danışıq zamanı Orxana üç oyunu mərc etmək istədiyini söyləyib. Həmin oyunlarda mərcin məzmunu "Zirə" - "Şamaxı" oyununda "Şamaxı"nın əsas vaxtda məğlubiyyəti, "Sumqayıt" - MOİK matçında "kimyaçılar"ın əsas vaxtda qələbəsi və "Neftçi" - "Difai Ağsu" oyununda isə əsas vaxtda 4 qol vurulacağı ilə bağlı olub.

"Topaz" istintaqa Adil Nağıyevin təşəbbüsü ilə yaradılan kuponları da təqdim edib. "101340" nömrəli "Topaz" məntəqəsində oyunlar başlamamışdan qabaq, əmsal 1,52-dən hesablanaraq hər birində 200 AZN məbləğində 4 kupon (bilet) üzrə ümumilikdə 800 manat məbləğində pul vəsaiti mərc edilib. Mərcin yekununda hər kupon (bilet) üzrə 653,61216 AZN yekun uduş məbləği əldə edilib.

Həmin kuponların hamısında "Şamaxı" - "Kəpəz" matçında Gəncə təmsilçisinin uduzmayacağı, Azərbaycan Premyer liqası çərçivəsində keçirilən "Zirə" "- "Sumqayıt" oyununda bakılıların qələbəsi, "Neftçi" - "Qarabağ" oyununda ağdamlıların, "Araz Naxçıvan" - "Turan Tovuz" matçında isə "3.5 alt" qeyd edilib. Yekunda "Kəpəz", "Qarabağ" "Zirə" qalib gəlib, "Araz Naxçıvan"ın matçı isə 1:0 hesabı ilə yekunlaşdığından hər 4 kupon uduşlu olub.

Qeyd edək ki, Adil Nağıyevə Cinayət Məcəlləsinin 192-2.3.1-ci maddəsi ilə ittiham elan edilib. Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin hökmünə əsasən, Adil Nağıyev 5 il müddətə azadlıqdan məhrum edilib. Lakin onun cəzası şərti hesab edilməklə 1 il sınaq müddəti təyin edilib.

YENİ MÜSAVAT

Son səhifə

N 227 (8837) 13 dekabr 2025

# Çayxorlara pis xəbər



**Həddindən artıq isti içkilərə üstünlük verənlərdə qida borusu xərçəngi riski əhəmiyyətli dərəcədə yüksəlir. Milli.Az xəbər verir ki, barədə "SM-Klinika"nın onkoloq-ximioterapevti Liana Sadykova xəbərdarlıq edib. Onun sözlərinə görə, çox isti qəhvə və ya çay selikli qişaya mütəmadi termiki zədə vurur, bu isə xroniki iltihaba və zamanla bədxassəli şişə çevrilə bilən dəyişikliklərə gətirib çıxarır.**

Mütəxəssis əlavə edib ki, tərkibində hazır yeməklər, çox yağlı, kəskin və qızardılmış qidalar olan rasion da mədə və bağırsaq şişlərinin ehtimalını artırır. Sadykova "ayda bir dəfə kabab normaldır, lakin yağlı qızardılmış ətə davamlı üstünlük verənlərdə risk xeyli yüksəlir" deyə vurğulayıb. Onkoloqun sözlərinə görə, azhərəkətli həyat tərzi fonunda nəzarətsiz çəki artımı da təhlükə yaradır. Piylənmə zamanı hormonal balans pozulur, bu isə qadınlarda süd vəzi, kişilərdə isə prostat xərçəngi riskini artırır. Sadykova siqareti də ən zərərli vərdişlərdən biri kimi qeyd edib. O bildirib ki, tütün tüstüsünün toksinləri qısa müddətdə ağciyər və mədəaltı vəzi hüceyrələrinə ciddi ziyan vurur.

Xəstəliklərin qarşısının alınması üçün mütəxəssislər normal temperaturda içkilərə üstünlük verilməsini, rasionun balanslaşdırılmasını, çəkinin nəzarətdə saxlanılmasını və zərərli vərdişlərdən imtinanı tövsiyə edirlər.

## Sinə xərçənginin də dərmanı tapıldı



**Təhlükəli növ döş xərçənginin təkrarlanma riskini azaltmaq üsulu tapılıb. Milli.Az xəbər verir ki, Kaliforniya Universitetinin (Los-Anceles) alimləri erkən mərhələdə hormonlara həssas döş xərçənginin təkrarlanma ehtimalını əhəmiyyətli dərəcədə azalda bilən yeni preparat olan giredesrant hazırlayıblar.**

Tədqiqatın nəticələri ABŞ-da keçirilən SABCS - San Antonio Breast Cancer Symposium tədbirində təqdim olunub. Məsələ HR-müsbət, HER2-mənfi sinə xərçəngi ilə bağlıdır. Bu tip şiş ən geniş yayılmış formadır və inkişafı üçün estrogen hormonlarından istifadə etdiyi üçün müalicədən sonra belə yüksək təkrarlanma riski ilə seçilir.

Aparılan genişmiqyaslı araşdırmaya 4 mindən çox pasiyent cəlb edilib. Nəticələrə görə, yeni preparat şişin yenidən yaranması ehtimalını təxminən üçdə bir azaldıb və onun digər orqanlara yayılma riskini də aşağı salıb. Müşahidə müddəti təxminən 3 il davam edib. Bu müddət ərzində giredesrant qəbul edən pasiyentlərdə müalicəni yarımçıq qoyma hallarının standart hormonal terapiya ilə müqayisədə daha az olduğu müəyyən edilib.

Giredesrant estrogen reseptorlarını sadəcə bloklamayan, onları tam məhv edən yeni tip dərmanlara aiddir. Bu xüsusiyyət sayəsində xərçəng hüceyrələri böyümə mexanizmindən məhrum olur. Alimlər bildirirlər ki, tədqiqat nəticələri təsdiqlənərsə, preparat son onilliklərin hormonal terapiya sahəsində ən mühüm yeniliklərindən birinə çevrilə bilər.

## Bir gündə iki plastik əməliyyata girən qadın öldü



**"Roszdravnadzor" Moskvanın mərkəzindəki özəl plastik cərrahiyyə klinikasında xəstə ölümü ilə bağlı araşdırmaya başlayıb. Bu barədə qurumun mətbuat xidməti məlumat yayıb.**

Rusiyanın Baş Prokurorluğu isə yayılan bu məlumata əlavə edib ki, faciə Skatertnı küçəsindəki özəl tibb klinikasında baş verib. Hazırda faciənin səbəbləri aidiyyəti qurumlar tərəfindən araşdırılır. "Roszdravnadzor" mütəxəssislərin tibbi yardımın necə təşkil olunması və qadının ölümünə konkret nəyin səbəb olmasını müəyyənləşdirəcəyini bəyan edib.

"112" Teleqram kanalının məlumatına görə isə qadın bir gün əvvəl iki əməliyyat keçiribmiş. Bunlar sinə kiçiltmə və qarın piylərinin alınması olub. O, əməliyyatın ertəsi gün səhər qəfildən özünü pis hiss edib və həkimlər bir gündə iki plastik əməliyyat keçirmiş xəstəni xilas edə bilməyiblər. Kanalın mənbələri iddia edir ki, ölümə ilkin səbəb kimi aspirasiya ola bilər. Kanal xəstənin "Medlaz" özəl klinikasında öldüyünü yazıb. Hansı ki, bu klinikada əməliyyat 300.000 rubldan başlayır.

## Finlandiyada aşağı liqaya düşən klubun stadionu yandırıldı



**Finlandiyanın köklü futbol klublarından biri olan "Haka" aşağı liqaya düşdükdən sonra ciddi etirazlarla üzləşib. Oxu.Az "Türkiye Gazetesi"nə istinadən xəbər verir ki, 12 komandalı liqada 16 xalla 11-ci yeri tutan klubun stadionu azarkeşlər tərəfindən yandırılıb. Hadisənin 15 yaşdan kiçik olan üç uşaq azarkeş tərəfindən törədildiyi müəyyən edilib. Polis yanğını törədən şəxslərin azyaşlı olduqlarına görə cəzalandırılmayacağını bildirib. Yanğın nəticəsində stadionun bir tribunası tamamilə məhv olub və süni örtüyün müəyyən hissəsi zədələnib.**

## Bunları bilirsinizmi?

* İnsanlar yuxuladığı zaman qoxu ala bilmirlər.
* Niaqara şəlaləsindən düşüb sağ qala bilən ilk insan Bobbi Liç evdə portağal qabığına basaraq yıxılmış və daxili qanaxma səbəbilə dünyasını dəyişmişdir.
* Dəniz atı dünyanın ən sədaqətli canlısıdır. Çünki həyat yoldaşı öldükdən qısa bir müddət sonra o da ölür.
* İnsan ildə ən az 1460 ədəd yuxu görür.
* "Karaoke" sözü Yapon dilində "quru orkestr" sözünün qısaldılmasıdır. "Kara" Yapon dilində boş deməkdir.
* Ördəyin səsi əks-səda vermir.
* Ən böyük quş yumurtası dəvəquşunundur. Yumurta 15 - 20 santimetr uzunluğunda və ortalama 1,7 kiloqram ağırlığındadır. Qaynadılaraq bişirilməsi isə 40 dəqiqə çəkir.
* Ən ağıllı heyvanlardan biri olan qarğalar, insanlar kimi yaşlı valideynlərini illər sonra gedib ziyarət edirlər.
* Ağcaqanadlar əllərini ovuşdurup başlarından keçirmə hərəkətini, uçarkən əllərinə yapışan molekulları təmizləmə məqsədi ilə edirlər.

D e k a b r

## Qaraciyərin iltihabına səbəb olan virusu 15 dəqiqə ərzində aşkarlayan üsul tapılıb



**ABŞ alimləri qaraciyərin iltihabına səbəb olan hepatit C virusunu cəmi 15 dəqiqə ərzində aşkar edən diaqnostik sistem hazırlayıblar. Oxu.Az "The Journal of Infectious Diseases" nəşrinə istinadən xəbər verir ki, bu sürətli diaqnostik proses qaraciyərə təsir edən viral infeksiyanın dərhal təsdiqlənməsinə şərait yaradır. Məlumata görə, xroniki hepatit C dünyada təxminən 50 milyon insanı əhatə edir. Hər il isə bu xəstəlikdən təxminən 242 min insan ölür.**

Ölüm hallarının əsas səbəbləri ilk növbədə sirroz və qaraciyər xərçəngidir. Müasir dərmanlar xəstəliyi iki-üç ay ərzində tam müalicə edə bilsə də, diaqnostik testlərə operativ çıxış hələ də əsas maneə olaraq qalır. "Biz xəstənin müayinəsi zamanı birbaşa tətbiq oluna bilən diaqnostik test hazırlaya bildik. Bu, eyni gündə həm diaqnoz, həm də müalicəyə başlamağa imkan verəcək", - deyə tədqiqatın müəlliflərindən biri bildirib.

Qeyd olunur ki, standart hepatit C testi adətən daha uzun çəkir və iki mərhələdən ibarətdir: nümunənin laboratoriyaya göndərilməsi tələb olunur və bu, nəticələrin günlərlə, hətta bəzən həftələrlə gecikməsinə səbəb olur. Yeni 15 dəqiqəlik sistem isə prosesi xeyli sürətləndirir və müalicəyə başlama vaxtını əhəmiyyətli dərəcədə azalda bilər.

## Yeni qurbağa növü Braziliya prezidentinin şərəfinə adlandırıldı



**Braziliyalı alimlər amfibiyaların yeni bir növünü - ölçüsü 14 mm-dən çox olmayan miniatür qurbağa kəşf ediblər. O, Braziliya Prezidenti Luis İnasiu Lula da Silvanın şərəfinə "Brachycephalus lulai" adlandırılıb. Bu barədə "Spiegel" məlumat yayıb. Tədqiqatçıların sözlərinə görə, qurbağa dağlıq ərazilərin meşə örtüyündə yaşayır. "Brachycephalus" cinsinin nümayəndələri parlaq rəngləri və son dərəcə kiçik ölçüləri ilə tanınırlar. Hazırda elmə bu cinsdən 42 növ məlumdur ki, onların 35-i yalnız 2000-ci ildən sonra kəşf edilib. Yeni növ Atlantik okeanı yaxınlığında, Santa-Katarina ştatındakı ucqar Serra-du-Quiriri dağ silsiləsində aşkar olunub.**

Səhifəni hazırladı: SELCAN

Baş redaktor:
Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri,
R.Rüstəmov küçəsi
2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor:
Emil SALAMOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib,
"Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır.
Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 1.500